# Şahin Şıxlinski təkadamlıq kamerada saxlanılır

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№30 (3369) 26 Avqust / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymət: 60 qəpik

ANA XƏBƏR



## Rəqsanənin ərinə də cinayət işi açıldı

# Sabiq icra başçısının ticarət mərkəzi hərraca çıxarılır



Elmar Vəliyevin ailə üzvləri "Xalq Bank"dan götürülmüş 5 milyon manatlıq krediti qaytarmayıblar

2

GÜNÜN NƏBZİ

Yaddaş

## "Bakıya qoşun yeridiləndə mən Azərbaycanın rəhbəri deyildim"



Əbdürrəhman Vəzirov: "Ermənilər Fransadan gətirilmiş xilasedici itlərin ölümünə görə başsağlığı verdilər, bizə yox"

13

Aktual

## Cənubi Qafqazda yeni güc arxitekturası formalaşır

Azərbaycanın NATO üzvü olan qardaş Türkiyə ilə strateji müttəfiqliyi ölkəmizə əlavə şans qazandırır...

3

Fakt

## Məcnun Məmmədovun "dostlar kabineti"

Və yaxud kənd təsərrüfatımızın inkişaf etməməsinin başlıca səbəbləri...

6

Ölkə

## "Cahan Holdinq" və "Saf Ət" MMC-yə qarşı şok ittihamlar

Naxçıvanda dönərdən kütləvi zəhərlənmənin gerçək səbəbləri

4

TƏHLİL

## Zəngəzur dəhlizinin region ölkələri üçün əhəmiyyəti

Və yaxud İran başda olmaqla, bəzi dövlətlər niyə bu dəhlizin açılmasına qarşıdır?

8-9

Baxış

## Türkün birliyinə uzanan "çirkli əllər"




TRT-nin Urmiyə haqqındakı verilişi düşünülmüş anti-türk aktıdır

5

Aktual

## Mürəkkəb geosiyasi şəraitdə strateji əməkdaşlıq




Azərbaycan həm Qərb, həm də Rusiya ilə münasibətləri pozmadan, Ukraynanın ərazi bütövlüyünə dəstək göstərir...

3

Ölkə

## Oğurluq edən şəxslərin görüntülərini də təqdim etdi, amma...

Paytaxt sakini Ələddin Əliyevdən nazir Vilayət Eyvazova növbəti müraciət

"Hürriyyət"in ötən saylarının birində Bakı şəhər sakini Əliyev Ələddin Hüseyn oğlu tərəfindən redaksiyamıza daxil olan şikayət məktubunu dərc etmişdik. Yenidən qəzetimizə müraciət edən şikayətçi bildirir ki, müraciəti dərc olunduqdan sonra onu hüquq-mühafizə orqanlarına dəvət edərək, ətraflı şəkildə şikayəti ilə maraqlanıblar:

4

Şikayət

## Bazarda 55 min manatlıq malı yanan sahibkar çarəsiz vəziyyətdə

Ruslan Əhmədov: "Bazar rəhbərliyi bizə kömək etmir, sığorta şirkəti də dəyən ziyanı qarşılamır"

Beyləqan rayon sakini Əhmədov Ruslan Teymur oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik: "Mən, Əhmədov Ruslan Teymur oğlu, yazaraq bildirirəm ki, 2006-cı ildən Beyləqan rayonunda yerləşən Kolxoz bazarında kişi yeyimləri satmaqla məşğul idim. İyun ayının 13-dən 14-nə keçən gecə, səhər saat 6 radələrində bazarda yangın baş verib.

10

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№30 (3369) 26 Avqust / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Dünyanı böyük fəlakətlər gözləyir

## Vanqadan 2026-cı il üçün qorxulu proqnoz

**Vanqanın 2026-cı il üçün proqnozları planetin əhəmiyyətli hissəsinə təsir edəcək ekstremal təbii fəlakətlər də daxil olmaqla, narahatedici mənzərə yaradır.**



Məşhur kor görücü Vanqa ölümündən təxminən 30 il keçməsinə baxmayaraq, heyrətamiz dərəcədə dəqiq proqnozları ilə dünyanı heyrətləndirməyə davam edir.

2026-cı il üçün onun proqnozları xüsusilə narahatedicidir: onlar dağıdıcı təbii fəlakətlərdən və dünya müharibəsi təhlükəsindən tutmuş süni intellektin sürətli artımına və hətta yerdənkənar həyatla ilk təmasa qədər mümkün böhranların geniş spektrini əhatə edir.

Vanqanın 2026-cı il üçün ən təəccüblü proqnozlarından biri ekstremal təbiət hadisələri ilə bağlıdır. İddialara görə, o, güclü zəlzələləri, dağıdıcı vulkan püskürmələrini və planetin ərazisinin 7-8 faizinə təsir edəcək ekstremal hava şəraitini qabaqcadan görüb.

Bu fəlakətlər bütün dünyada həyatları, infrastrukturu və ekosistemləri təhdid edə bilər. O, konkret yerlərin adını çəkməsə də, son illərdə təbii fəlakətlərin artması onun xəbərdarlıqlarına qorxunc bir inandırıcılıq verir.

Vanqanın proqnozlarında bəlkə də ən qorxulu məqam III Dünya Müharibəsi ehtimalıdır. İddiaya görə, o, aparıcı güclər arasında münaqişələrin eskalasiyasını, o cümlədən Çinin Tayvana mümkün hücumunu və Rusiya ilə ABŞ arasında birbaşa hərbi toqquşmaların ssenarisini qabaqcadan görüb.

Yaxın Şərq, Cənub-Şərqi Asiya və Cənubi Asiyada gərginlik qlobal münaqişənin mümkün eskalasiyası ilə bağlı qorxuları artırır.

Vanqa həmçinin 2026-cı ilin süni intellekt üçün dönüş nöqtəsi ola biləcəyini proqnozlaşdırıb. Maşınlar təkcə insanlara kömək etməyəcək, həm də kütləvi işsizlik, etik dilemmalar və insan nəzarətinin itirilməsi ilə bağlı narahatlıqları artıraraq, tədricən əsas sahələrə hakim olacaq.

2025-ci ildə süni intellektin sürətlə qəbulu bu xəbərdarlığı o qədər də uzaqgörən edir.

Daha spekulyativ şərhdə Vanqa 2026-cı ilin noyabrında Yer atmosferinə daxil olan nəhəng kosmik gəmini təsvir edərək, yerdənkənar həyatla ilk təması qabaqcadan görüb. Əksər elm adamları səma hadisələri üçün təbii izahatlara üstünlük versələr də, Harvarddan Avi Leba kimi tədqiqatçılar yadplanetlilərin həyatı mövzusuna marağı artıraraq, Yer kürəsinin yaxınlığında süni obyektlərin peyda olmasını istisna etmirlər.

## Əyləncə səhifəsi




# Ər-arvad lotereyada 1 milyard uddular

**Rusiyada Yuri və Svetlana Semenovlar təsadüfi bir lotereya uduşu sayəsində bir anda milyarderə çevriliblər.**

Yuri peşəkar tornaçı, həyat yoldaşı Svetlana isə loqopeddir. Uşaqların nitqini düzəltməyə illərini həsr edən qadın heç vaxt bu qədər böyük məbləğə sahib olmağı xəyal belə etməmişdi.

Yuri şanslarını sınamaq üçün bir neçə lotereya bileti alıb və onları həyat yoldaşı ilə yarı bölüşüb.

"Bu, balıq ovuna bənzəyirdi, bəziləri saatlarla gözləyir, heç nə əldə etmir, bəzilərinə isə ilk anda xoşbəxt olurdu," - deyə Yuri sonradan öz uğurlarını təsvir etdi.

Qısa müddətdə məlum oldu ki, ailə 1 milyard rublluq uduşun sahibi olub. Lakin bu sərvəti xərcləməkdə tələsmədilər. Semenovlar tez bir qərara gəldilər. Onlar yeni mənzil aldılar, övladlarına maddi dəstək göstərdilər və sağlamlıqlarına diqqət ayırdılar.

# 2500 il əvvəl yaşamış qədim insanın siması bərpa olundu

**Hindistanın cənubundakı Tamil Nadu əyalətindəki Madurai Kamaraj Universitetinin laboratoriyasında tədqiqatçılar 2500 illik diş minasını tədqiq edirlər.**

"BBC News" bildirir ki, diş Kiladi arxeoloji sahəsinin yaxınlığında yerləşən Kondagai qədim məzarlığında tapılan iki kişi kəlləsindən birinə aiddir. Alimlər bölgə sakinlərinin necə göründüyünü anlamaq üçün ilk dəfə olaraq üzlərini rekonstruksiya ediblər.

Arxeoloqlar hesab edirlər ki, Kiladi eramızdan əvvəl 580-ci ilə aid inkişaf etmiş şəhər sivilizasiyası olub. Kəşf Hindistan urbanizasiyasının mənşəyinin şimal və Hind Vadisi sivilizasiyası ilə məhdudlaşdığına dair ənənəvi baxışa meydan oxuyur. Kiladidə insanlar kərpicdən tikilmiş evlərdə yaşayırdılar, yazmağı bilirdilər və subkontinent daxilində və ondan kənarda ticarət edirdilər. Dəfn adətinə gəlincə içərisində taxıl və qablar olan əlliyə yaxın dəfn yeri tapılıb.

Alimlər indi qədim insanların mənşəyini və köçlərini izləmək üçün sümüklərdən və artefaktlardan DNT çıxarırlar. İlk rekonstruksiyalar qitənin ilk sakinlərindən sayılan "qədim cənub hindliləri" adlandırılanların xüsusiyyətlərini göstərib. Ancaq üzlərində Yaxın Şərq və Avstriya-Asiya mənşəli izlərə də rast gəlinir. Bu, qədim köçlə-



rin və xalqların qarışmasının sübutu sayıla bilər.

Kəllələrin 3D skanları Liverpul Universitetinin Face Lab laboratoriyasına göndərilib. Burada mütəxəssislər Tamil Nadu sakinlərinin müasir antropometrik məlumatları əsasında əzələlər, dəri və rəng əlavə ediblər. Məhz rəngləmə məsələsi - dərinin, gözlərin və saçın kölgəsi Hindistan cəmiyyətində qızğın müzakirələrə səbəb olub. Şimal-cənub məsələsini və "ilk hindlilərin" mənşəyi ilə bağlı mübahisələri bir daha kəskinləşdirib.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.
Qəzet 1991-ci ildən çıxır.

# Kəmaləddin Heydərov rəisi işdən çıxardı




Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Qiymətqoyma Mərkəzinə yeni rəhbər təyin edilib.

Məlumata əsasən, fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov bununla bağlı müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Mərkəzin əvvəlki rəhbəri Aleksey Teymuroviç Şahhüseynov tutduğu vəzifədən azad edilib. Onun yerinə isə Məmmədova Ləman Aydın qızı təyin olunub.

Qeyd edək ki, Aleksey Şahhüseynov bu posta 2024-cü ilin yanvarında gətirilmişdi.

# Tural Sadıqlının əmisinin cinayət işi məhkəmə baxışına verildi



**Qanunsuz olaraq döyüş sursatı gəzdirdiməkdə təqsirləndirilən, bloger Tural Sadıqlının əmisi Elmir Sadıqovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

APA xəbər verir ki, dünən Sabunçu Rayon Məhkəməsində hakim Samirə Məmmədlinin sədrliyi ilə keçirilən prosesdə anket məlumatları dəqiqləşdirilib.

Vəkil Nazim Musayev vəsatət verərək təqsirləndirilən şəxs barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı qətimkan tədbiri ilə əvəz edilməsini xahiş edib.

Vəsatət təmin edilməyib.

Məhkəmənin qərarı ilə cinayət işi baxışa verilib və baxış iclası sentyabrın 8-nə təyin edilib.

Qeyd edək ki, Elmir Sadıqov aprel ayında saxlanılıb. İttihama görə, onun maşınından əl qumbarası tapılıb. E. Sadıqova Cinayət Məcəlləsinin 228.1-ci (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və ya gəzdirmə) maddəsi ilə cinayət işi açılıb. İlkin istintaq dövründə onun barəsində həbs qətimkan tədbiri seçilib.

# İlkin Süleymanovun məhkəməsinin vaxtı bəlli oldu

**Tovuz rayonunda 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə təqsirləndirilən İlkin Süleymanov barəsində olan hökmdən verilən kassasiya şikayəti üzrə məhkəmənin vaxtı məlum olub.**

İş Ali Məhkəmədə hakim Rəşad Abdulovun icraatına verilib. Məhkəmənin hazırlıq iclası oktyabrın 14-nə təyin edilib.

Qeyd edək ki, İlkin Süleymanov Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 18 il müddətinə azadlıqdan məhrum edilib.

Gəncə Apellyasiya Məhkəməsinin qərarı ilə birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanıb.

Xatırladaq ki, Tovuz rayonunun Dondar Quşçu kənd sakini Nərmin Quliyeva 2019-cu il noyabrın 21-də itkin düşüb, onun meyiti 2020-ci il yanvarın 6-da yandırılmış halda tapılıb. 2020-ci il yanvarın 10-da isə hadisəni törətməkdə şübhəli bilinən Dondar Quşçu kənd sakini, 1973-cü il təvəllüdlü İlkin Süleymanov saxlanılaraq istintaqa cəlb edilib. Ona Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 144.3 (adam oğurluğu) və başqa maddələrdə nəzərdə tutulan ittiham elan olunub.

# Sabiq icra başçısının ticarət mərkəzi hərraca çıxarılır

## Elmar Vəliyevin ailə üzvləri "Xalq Bank"dan götürülmüş 5 milyon manatlıq krediti qaytarmayıblar



### Vəliyevlər hər ay bazardakı obyektlərin icarəsindən 200 min manata qədər vəsait toplayıb, lakin bu vəsait kreditin ödənilməsinə yönəldilməyib...

**Gəncə şəhərində 20 hektar ərazidə yerləşən "Grand Qafqaz Ticarət Kompleksi" ("Gəncə Bazar Store" MMC) banka olan kredit borcuna görə hərraca çıxarılır.**

"Gununəssiz.info" saytının yaydığı məlumata görə, bazarın sahibi - Gəncənin keçmiş icra başçısı Elmar Vəliyevin ailə üzvləri "Xalq Bank"dan götürülmüş 5 milyon manatlıq krediti qaytarmayıblar. Nəticədə məhkəmə kreditin əvəzinə bankın girov kimi qoyulmuş əmlakının hərraca çıxarılaraq satılması və borcun ödənilməsi barədə qərar çıxarıb.




Məlumata görə, 5 milyon manatlıq kreditin 3 milyon 800 min manatı hələ də ödənilməyib. Bank bu vəsaitlə yanaşı, 99 min 996 manat faiz borcu, gecikmənin hər günü üçün illik 30 faiz dərəcə ilə hesablanan 250 min 589 manat cərimə olmaqla, ümumilikdə 4 milyon 182 min manat pulun ödənilməsi tələbi ilə məhkəməyə müraciət edib. Tələb edilib ki, məhkəmə borcun girov qoyulmuş əmlakın satılması hesabına ödənilməsinə qərar versin.

Məhkəmə də bu tələblə razılaşıb və ticarət kompleksinin hərraca çıxarılaraq satılmasına, əldə olunacaq vəsaitin bankın borcunun ödənilməsinə yönəldilməsinə qərar verib.

"AzPolitika"ya daxil olan məlumatlara görə, kreditin uzun müddət ərzində ödənilməməsi təəccüb doğurur. Belə ki, məlumatlara görə, Vəliyevlər hər ay bazardakı obyektlərin icarəsindən 200 min manata qədər vəsait toplayıb. Lakin bu vəsait kreditin ödənilməsinə yönəldilməyib. Bundan əlavə, MMC-nin külli miqdarda vergi borcları da yaranıb. Bu səbəbdən Dövlət Vergi Xidməti də şirkət barəsində araşdırma başladıb.

Qeyd edək ki, bazarda bütün ticarət yerləri icarəyə verilməsə də, kifayət qədər sayda obyekt fəaliyyət göstərir. Mənbələrin bildirdiyinə görə, ticarət mərkəzinin hərraca çıxarılmasına qədər gətirib çıxaran problemlər MMC-nin idarə olunmasındakı ciddi qüsurlarla bağlıdır. Əgər hər ay toplanan vəsaitlər borcların ödənilməsinə və ticarət mərkəzinin inkişafına sərf olunsaydı, bu nəhəng bazar hərraca çıxarılmazdı...

# Şahin Şıxlinski təkadamlıq kamerada saxlanılır




**Rusiyanın Sverdlovsk vilayətində saxlanılan Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinski hazırda Yekaterinburqdakı 1 saylı istintaq təcridxanasında təkadamlıq kamerada saxlanılır. Məlumata görə, o, yanına bir məhbusun da yerləşdirilməsini xahiş edib.**

Bu barədə onunla görüşən Regional İctimai Nəzarət Komissiyasının (ONK) sədri Vladimir Popov məlumat verib.

"Şıxlinski təkadamlıq kamerada saxlanılır, ölçüsünə görə sanki toyuq hininə bənzəyir. Kamera təmir olunub və normalara uyğundur, amma belə iri cüssəli insan üçün çox kiçikdir. O, sıxıntılı şəraitdədir", - deyə Azərbaycan diasporunun liderinin vəziyyətini Popov şərh edib.

Onun sözlərinə görə, Şıxlinski heç bir narazılıq bildirməyib, əksinə təcridxana əməkdaşlarının ona qarşı korrekt münasibətini xüsusi vurğulayıb. Həm məişət şəraiti, həm də yeməkdən razıdır. Əsas problem isə həbsxana şəraitində ciddi şəkildə pisləşmiş səhhətidir.

"O, yaşlı və xəstə bir insandır, hesab edir ki, heç bir qanunsuz iş görməyib, sadəcə şəraitin qurbanı olub. Onun elə bir xəstəliyi var ki, hər an təcili tibbi yardım lazım ola bilər. Arzuolunandır ki, Şıxlinskinin kamerası təkadamlıq olmasın və yanında bir məhbus da olsun ki, lazım gəldikdə həyəcan qaldırıb həkimləri çağırsın", - deyə Popov izah edib.

ONK üzvləri vəziyyət barədə Sverdlovsk vilayətinin ombudsmanı Tatyana Merzlyakovaya məlumat veriblər. Hüquq müdafiəçiləri bu problemi həmçinin Penitensiar Xidmətinin rəhbərliyinə də çatdıracaqlar.

Qeyd edək ki, Şahin Şıxlinski avqustun əvvəlində Moskvada saxlanılıb. Qeyri-rəsmi məlumata görə, o, guya Azərbaycan səfirliyində gizlənirmiş. İlkin məlumata əsasən, ona qəsdən adam öldürməyə cəhd ittihamı irəli sürülüb. Şıxlinski isə özünü təqsirli saymadığını bildirir.

# Rəqsanənin ərinə də cinayət işi açıldı

## Fazil Əmiraslanovun ölkədən çıxışına qadağa qoyuldu



**1 milyon manatlıq dələduzluq ittihamı ilə həbs edilən müğənni Rəqsanə İsmayılovanın əri, Fazil Əmiraslanov da eyni iş üzrə cinayət məsuliyyətinə cəlb olunub.**

Bu barədə "Qafqazinfo" məlumat yayıb. Məlumata görə, F.Əmiraslanov xüsusilə böyük məbləğdə mənimsəmə ittihamı ilə üzləşir. İş adamı təqsirləndirilən şəxs kimi istintaqa cəlb olunsa da, hələlik həbs edilməyib. Onun barəsində polis nəzarəti altında olma qətimkan tədbiri seçilib və istintaq bitənədək ölkədən çıxışı qadağandır. Bu məlumatı onun vəkili Ramal Şahmarov da təsdiqləyib.

Cinayət işi Sabunçu Rayon Polis İdarəsində aparılır. Rəqsanə İsmayılova və Fazil Əmiraslanov Cinayət Məcəlləsinin 178.4-cü maddəsi (xüsusilə böyük məbləğdə dələduzluq) ilə ittiham olunublar. Zərər ödənilmədiyi halda, bu maddə üzrə təqsirləndirilən şəxs 10-14 il müddətinə azadlıqdan məhrum edilə bilər.

## ELAN

**"Nizami 14" MMMC-nin Nizamnaməsi itdiyi üçün etibarsız sayılır.**

**137 saylı MTK-nın möhürü itdiyi üçün etibarsız hesab olunur.**

# Cənubi Qafqazda yeni güc arxitekturkası formalaşır




## Azərbaycanın NATO üzvu olan qardaş Türkiyə ilə strateji müttəfiqliyi ölkəmizə əlavə şans qazandırır...

**8 avqust 2025?ci il tarixində Ağ Evdə Azərbaycan və Ermənistan liderlərinin imzaladığı sülh bəyanatı regionun geosiyasi xəritəsində kəskin dönüş yaratdı. ABŞ prezidentinin vasitəçiliyi ilə reallaşan bu addım təkcə iki qonşu arasında düşmənçiliyə son qoymaq deyil, həm də Cənubi Qafqazın güc balansını yenidən qurmaq potensialını ortaya qoydu.**

Bu reallıq Kremldə Moskvanın Cənubi Qafqaza nəzarətinin itirilməsi təəssüratı yaradıb. Məhz bu səbəbdən son günlər Rusiya mediasında anti?Azərbaycan isteriyası güclənib.

Azərbaycanla Ermənistan arasında Vaşinqtonda imzalanan "Sülh çərçivəsi" Sazişinin ən mühüm bəndlərindən biri - "Trump Route for International Peace and Prosperity (TRIPP)" adlandırılan Zəngəzur marşrutu Naxçıvanla Azərbaycanın Qərb hissəsini birləşdirəcək. Razılaşmaya görə, bu yolun uzunmüddətli inkişaf (idarəetmə) hüquqları ABŞ tərəfinə verilir.

İran rəhbərliyinin İrəvana səfəri və "ABŞ?ın sərhəddə varlığına" etirazları göstərir ki, TRIPP - Zəngəzur yolu Cənubi Qafqazın təkcə ticarət xəritəsini deyil, eyni zamanda onun təhlükəsizlik arxitekturasını da dəyişir.

Sazişdən dərhal sonra Rusiyanın Ukraynanın cənubunda SOCAR?a məxsus neft bazasına təkrar zərbələri, həmçinin enerji və liman infrastrukturunu hədəfə alması Kremlin hərbi mesaj diplomatiyasının klassik nümunəsidir. Odessa vilayətində SOCAR-a aid neft anbarlarının bombalanması və böyük yanğınlar real qeydlərlə təsdiqlənib. Bu təcavüz aktı ilə paralel olaraq, BTC marşrutu ilə Avropaya göndərilən xam neftə "xlor" qatılması şübhəsi Rusiyanın hibrid əməliyyatlarının aləti kimi qiymətləndirilir. Məqsəd BTC kəməri ilə Avropaya ötürülən neftin keyfiyyətinə olan etimadı sarsıtmaqdır.

Digər tərəfdən, Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporunun üzləri hələ də sıxışdırılır, rəsmi Bakıya qarşı informasiya cəbhəsi genişləndirilir. Rusiyada yaşayan etnik azərbaycanlılara qarşı reydlər və zorakılıq aktları, eyni vaxtda Bakıda rus dövlət mediasının yerli strukturlarına dair istintaqlar iki paytaxt arasında gərginliyin sistemli xarakter aldığını göstərir.

Əlbəttə, Kremlin təbliğatı Azərbaycan cəmiyyətində ciddi rezonans doğurmayıb. Əksinə, rəsmi Bakı da informasiya təhlükəsizliyi rejimini sərtləşdirdiyini nümayiş etdirir. Rusiyanın Azərbaycana qarşı başlatdığı "hibrid" müharibəsinin güclənməsi fonunda NATO Baş katibi Mark Rutte 19 avqust 2025?də açıqladı ki, 2026?cı ilin 7-8 iyulunda NATO-nun Zirvə Toplantısı Ankaradakı Beştəpə kompleksində keçiriləcək. Bu qərar Türkiyənin Alyansdakı çəkisini və cənub?şərq cinahının strateji əhəmiyyətini bir daha təsdiq edir.

Azərbaycanın NATO üzvu olan qardaş Türkiyə ilə strateji müttəfiqliyi ölkəmizə əlavə şans qazandırır. Azərbaycanın təhlükəsizlik, müdafiə sənayesi, rabitə?enerji xətləri və NATO ölkələrinin himayəsinə keçən TRİPP - Zəngəzur yolu ilə daha sıx inteqrasiyası gündəliyə gəlir.

Bakı Moskva ilə qarşıdurma istəmir, lakin SOCAR?a edilən zərbələr, diasporun hədəfə alnması və enerji tədarükünə müdaxilələr fonunda cavab addımlarının "simmetrik" ola biləcəyini açıq saxlayır. Bu, Ukrayna ilə texnoloji?logistik əməkdaşlıqdan tutmuş, hava hücumundan müdafiə (HHM - PVO) şəbəkələrinin gücləndirilməsinə qədər müxtəlif ssenariləri əhatə edə bilər.

Vaşinqton-Bakı münasibətlərinin dərinləşməsi fonunda gələn siqnallar da bunu təsdiqləyir. Bunlarla yanaşı, İrəvan-Ankara münasibətlərinin normallaşması da artıq yalnız ikitərəfli məsələ deyil, həm də TRIPP - Zəngəzur marşrutu ilə bağlı olan Ağ Ev sazişi bu prosesi stimullaşdıran çərçivə rolunu oynayır.

Baş verən hadisələr Cənubi Qafqazda mövcud olan Rusiya hərbi infrastrukturunun, xüsusilə, Gümrüdəki 102?ci hərbi bazasının və sərhədçi kontingentinin gələcək taleyini şübhə altına salır. Bu barədə Ermənistan daxilində aparılan müzakirələr həm geosiyasi, həm də daxili siyasi riskləri qabardır.

Ortaya çıxan reallıqlar fonunda Rusiya hələ də Ukraynada "uzanan aşınma prosesində" (bataqlıqda) ilişib qalmışdır. Resursların tükənməsi, sanksiyalar və texnoloji məhdudiyyətlər Kremlin Cənubi Qafqaza aktiv təsir imkanlarını daraldır. Moskvanın Bakıya qarşı tətbiq etdiyi güc mesajları və "hibrid müharibəsi" qısamüddətli sarsıdıcı təsir yaratsa da, strateji müstəvidə əks effekt doğurur:

- Region dövlətlərinin Qərb təhlükəsizlik şəbəkəsinə yaxınlaşmasını sürətləndirir ;
- Türkiyənin rolunu yüksəldir;
- Azərbaycanın nəqliyyat?enerji statusunu möhkəmləndirir.

TRIPP - Zəngəzur marşrutu isə bu transformasiyanın əsas elementidir.

**Qəvami SADIQBƏYLİ**

# Mürəkkəb geosiyasi şəraitdə strateji əməkdaşlıq

## Azərbaycan balanslı, amma prinsipial siyasəti ilə həm Qərb, həm də Rusiya ilə münasibətləri pozmadan, Ukraynanın ərazi bütövlüyünə dəstək göstərir...

**Ukrayna prezidenti Volodimir Zelenskinin "Ukrayna Rusiyaya zərbələr endirmək üçün ABŞ-ın icazəsinə ehtiyac duymur" fikri Qərb-Ukrayna münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bu bəyanatın arxasında iki məqamın dayandığı hiss olunur:**



1. Qərbin dəstəyinə ehtiyacı olsa da, Kiyev istəyir ki, özünü "kimlərdənsə asılı dövlət" kimi göstərməsin;
2. Ukrayna öz əhalisi və beynəlxalq auditoriya qarşısında "suveren qərar qəbul edə bilən dövlət imicini" qorumağa çalışır.

Bununla yanaşı, Qərbin, xüsusən ABŞ-ın Ukraynaya verdiyi silahların Rusiyaya qarşı necə və harada istifadə olunacağı məsələsi hələ də açıq qalır. Zelenskinin "biz artıq bu barədə danışmırıq" deməsi, əslində, ABŞ tərəfindən müəyyən məhdudiyyətlərin mövcudluğunu dolayı yolla təsdiq edir.

Rusiya isə 2020-ci ildə Ukraynaya hücum etməklə özünü "siyasi bataqlığa"salıb. İndi Rusiya "TSUTSVANQ" (məcburi gediş) vəziyyətinə düşüb. Rusiya elə bir duruma gəlib ki, Kreml hansı addımı atsa ölkə üçün zərərli olacaq; geri çəkilsə, imicini, təsir dairəsini itirəcək, irəli getsə itkilərini daha da artcaq. Yəni hər iki halda vəziyyəti pisləşəcək.

Rusiya müharibəni dayandırsa, zəif görünəcək və geosiyasi itkilər yaşayacaq. Müharibəni davam etdirsə, iqtisadi cəhətdən tükənəcək, beynəlxalq təcrid güclənəcək. Hazırda Moskvanın əlində əlverişli çıxış yolu yoxdur, atacağı hər addım onun vəziyyətini daha da çətinləşdirəcək.

Ukraynada müharibənin davam etdiyi mürəkkəb mərhələdə Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynanı müstəqillik günü münasibətilə təbrik etməsi xüsusi diplomatik mesajdır.

İlham Əliyev təbrikində bildirib: "Azərbaycan və Ukraynanın tarixidə dostluq və qarşılıqlı hörmət ənənələri vardır... Hər iki ölkənin suverenlik və ərazi bütövlüyünü müdafiəsi bu dövlətlərin beynəlxalq hüququdur... Enerji, nəqliyyat, iqtisadiyyat və humanitar sahələrdə əməkdaşlıq ölkələrimizin süveren haqqıdır".

Volodimir Zelenskinin Azərbaycanla bağlı, "biz hər zaman birbirimizi dəstəkləmişik və strateji əməkdaşlığı daha da gücləndirəcəyik" deməsi də onu göstərir ki, Bakı-Kiyev münasibətləri yalnız diplomatik jestlərdən ibarət deyil, real geosiyasi və iqtisadi maraqlara söykənir. Ukrayna böhranı fonunda Azərbaycan və Türkiyə regionda sülh, sabitlik və beynəlxalq hüququn aliliyini dəstəkləyən mühüm aktorlar kimi çıxış edir. Türkiyə həm NATO üzvü olaraq, həm də Ukrayna ilə hərbi-texniki əməkdaşlıq sahəsində açıq dəstək nümayiş etdirir.

Azərbaycan isə balanslı, amma prinsipial siyasəti ilə həm Qərb, həm də Rusiya ilə münasibətləri pozmadan, Ukraynanın ərazi bütövlüyünə dəstək göstərir, bu ölkəyə humanitar yardımlar edir. Bu, Azərbaycanın diplomatiyasını fərqləndirən əsas prinsipial məqamdır.

Görünən odur ki, Ukrayna böhranı yalnız Moskva və Kiyev arasında deyil, həm Qərb, həm, Türkiyə, həm də Azərbaycan və digər regional dövlətlərin maraqlarının toqquşma meydanına çevrilib.

İndiki mürəkkəb şəraitdə Azərbaycan-Ukrayna münasibətləri qarşılıqlı dəstəyin nümunəsi kimi dəyərləndirilə bilər.

Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi, suverenlik və ərazi bütövlüyü prinsipinə sadiqliyi həm öz milli dövlət maraqlarına, həm də qlobal sülh prosesinə xidmət edir. Azərbaycan diplomatiyasının balanslı siyasəti, Ukrayna ilə strateji tərəfdaşlığı göstərir ki, Bakı yaxın illərdə Cənubi Qafqaz və Qara dəniz regionunda mühüm rol oynamaqda davam edəcək...

**Qəvami SADIQBƏYLİ**



# "Sədərək"də sahibkarlara dəymiş ziyanı kim ödəyəcək?

**Qaradağ rayonu ərazisində yerləşən "Sədərək" ticarət mərkəzində yenidən yanğın hadisəsi baş verdi. Bu, son 8 ildə sözügedən ticarət mərkəzində onuncu belə hadisə idi. Aydındır ki, bu dəfə də sahibkarlara xeyili ziyan dəyib. Bəs, yanğına görə sahibkarlara dəymiş ziyanı kim ödəyəcək?**

İqtisadçı,vdeputat Vüqar Bayramov xatırladır ki, nkişaf etmiş ölkələrdə belə yanğınlar baş verən zaman dəymiş ziyan sığorta şirkətləri tərəfindən ödənilir.

Onun sözlərinə görə, sahibkarlar öz əmlaklarını və məhsullarını sığortalayırlar ki, belə hallarda ziyanı sığorta şirkəti ilə paylaşa bilsinlər: "Azərbaycanda da sahibkarlar əmlakın icbarı və eləcə də könüllü sığortasından istifadə edərək gözlənilməyən zərərləri öncədən kompensasiya edə bilərlər. Amma, müşahidələr göstərir ki, "Sədərək" Ticarət Mərkəzində texniki təhlükəsizlik vəziyyəti və əmlakın sığortalanması səviyyəsi tamamilə fərqlidir. Hətta bəzi əmlak sahibləri öz obyektlərini və mallarını sığortalamaq istəsələr də belə buna nail ola bilmirlər. Belə ki, sığorta şirkətləri yüksək riskli vəziyyəti nəzərə alaraq, oradakı əksər mağazaları sığortalamaqdan imtina edirlər.

Sözsüz, sığorta şirkətləri də öz risklərini öncədən planlaşdıra bilməlidirlər. Bu şirkətlər heç bir halda yüksək risk olan əmlaklarda öhdəlik götürməkdə maraqlı olmayacaqlar. Belə əmlakların sığortalanması üçün Fövqəladə Hallar Nazirliyinin istismar ilə bağlı müvafiq rəy və sənədin alınmasına ehtiyac var. Belə sənədlər olmadıqda təbii ki, sığorta şirkətləri, demək olar, hər il yanğın olan ticarət mərkəzində əmlakları sığortalamaqda maraqlı olmayacaqlar".

İqtisadçı deyir ki, bütün bunlar ilə yanaşı, "Sədərək" ticarət mərkəzinə də sığorta münasibətlərinin gətirilməsinə ehtiyac var. "Bu sahibkarlara dəyən və gələcəkdə dəyə biləcək zərərlərin öncədən sığortalanması üçün vacibdir. Amma bunun üçün həmin obyektlərdə texniki təhlükəsizlik qaydalarının tam təmin edilməsinə ehtiyac var. Əks halda, sığorta şirkətləri bu riski obyektlər ilə işləməkdə maraqlı olmayacaqlar və yanğın nəticəsində sahibkarlara dəyən ziyan sığorta ilə qarşılanmayacaq", - o qeyd edib.

Deputat əlavə edir ki, sahibkarların aylıq ödənişləri də kiçik məbləğlər deyil.

"Deməli, yığılan vəsaitlərin bir hissəsinin texniki təhlükəsizliyin gücləndirilməsi üçün istifadəsinə ehtiyac var. Yoxsa, yenə də sığorta şirkətləri belə mərkəzlərdən yan keçəcəklər", - o vurğulayıb.

# Oğurluq edən şəxslərin görüntülərini də təqdim etdi, amma...

## Paytaxt sakini Ələddin Əliyevdən nazir Vilayət Eyvazova növbəti müraciət

## "Müstəntiq etiraf etdi ki, bu işlə məşğul olmağa vaxtı olmadı"



**"Hürriyyət"in ötən saylarının birində Bakı şəhər sakini Əliyev Ələddin Hüseyn oğlu tərəfindən redaksiyamıza daxil olan şikayət məktubunu dərc etmişdik. Yenidən qəzetimizə müraciət edən şikayətçi bildirir ki, müraciəti dərc olunduqdan sonra onu hüquq-mühafizə orqanlarına dəvət edərək, ətraflı şəkildə şikayəti ilə maraqlanıblar:**

"Hörmətli redaksiya!

2024-cü ildə Nəsimi Rayon Polis İdarəsinə məndən külli miqdarda oğurluq edən Laçın adlı şəxs və gəlini Rəşidə barəsində şikayət etmişdim. Oğurluğun sübutu üçün əlimdə kifayət qədər kamera görüntüləri var. Həmin görüntüləri də Nəsimi rayon İstintaq İdarəsinin rəisinə göstərdim və diskləri Rauf adlı müstəntiqə təhvil verdim.

Görüntüləri görən rəis və müstəntiq barəsində şikayətçi olduğum Laçını həbs edəcəklərini söylədilər. Amma Rauf dəfələrlə məni aldadaraq işi yubatdı. Sonra mənə məlum olmayan səbəbdən işə xitam verdi. Özü də etiraf etdi ki, bu işlə məşğul olmağa vaxtı olmadı. Mənə məsləhət gördü ki, prokurorluğa müracit edim.

Lakin prokurorluqdan da qənaətbəxş cavab ala bilmədim. Belə ki, Nəsimi rayon prokurorun köməkçisi də vaxtının olmadığını və məni qəbul edə bilməyəcəyini söylədi.

Daxili İşlər naziri Vilayət Eyvazova müraciətdən dərhal sonra məni Polis bölməsinə çağırdılar. Həmçinn, Bakı Şəhər Baş Polis İdarəsinə də dəvət olundum. General Vüqar Ələkbərovun qəbulunda oldum. O, mənə köməklik göstərəcəklərini bildirdi. Buradan general Vüqar Ələkbərova öz dərin təşəkkürümü bildirirəm.

Qeyd edim ki, hazırda Nəsimi Rayon Polis İdarəsində cinayət işi açılıb. 3 aydır araşdırma gedir. Amma işin ləng getməsi məni narahat edir. Mən, sizin sayt vasitəsilə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova yenidən müraciət edirəm.

Cənab nazir, xahiş edirəm bu məsələni diqqətdə saxlayın, günahkar şəxslər cəzasız qalmasın və məndən oğurlanan mallar geri qaytarılsın".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Elektron tərəzi yükü artıq göstərir, sürücülər külli miqdarda cərimələnir...

## Qaradağ sakini tərəfindən rəsmi qurumlara müraciət

**Qaradağ rayonu, Korgöz qəsəbə sakini Novruzov Ramiz Yavər oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Ağstafa rayonu ərazisindəki elektron tərəziyə nəzarət edən şəxslər insanlara haqsız yerə cərimə yazır:**

"Mən, Novruzov Ramiz Yavər oğlu, yazaraq bildirirəm ki, Ağstafa rayonu ərazisində qurulan "AYNA"ya məxsus tərəzi sürücülərə artıq cərimə yazır. Belə ki, tərəzi 40 ton yükü 42 ton 300 kq göstərir. Sonra da sürücüyə 600 manat cərimə gəlir. Hansı ki, mənə yazılan həmin 600 manatı ödəməyə məcbur oldum...



11.08.2025-ci il tarixində "Norum" sement zavodundan Gürcüstana qilinker yükü aparırdım. Yükün 26 ton 60 kq idi. Bu yükə Dövlət Gömrük Komitəsi möhür vurub, əlimdə sənədlərim var.



Qaradağ yol polisi postunun yanındakı elektron tərəzidən problemsiz keçmişəm. Heç



bir qayda pozuntusunun olmadığını bildiriblər. Lakin Ağstafa ərazisindən keçəndə yükü 42 ton 320 kq hesablayıblar. Nəticədə 1080 manat cərimə olunmuşam. Yəni qanunsuz yerə cərimə yazılıb. Çörəkpulu üçün evdən çıxırıq, ziyanla qayıdırıq. Belə olmaz.

Mən, sizin sayt vasitəsilə səlahiyyətli qurumlardan, hüquq-mühafizə orqanlarından xahiş edirəm, bu məsələdə mənə kömək edin. Ağstafa rayon ərazisindəki elektron tərəzi düzgün çəkmir. Məcbur qalıb, aparıb 1080 manat ödənişi də etmişəm. Amma, xahiş edirəm, bu qanunsuzluğa bir çarə qılın".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# "Cahan Holdinq" və "Saf Ət" MMC-yə qarşı şok ittihamlar

## Naxçıvanda dönərdən kütləvi zəhərlənmənin gerçək səbəbləri



Naxçıvan şəhər sakini Qasımov Hilal Zülal oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Sahibkar olduğunu bildirən şikayətçi rəsmi qurumların yarıtmaz fəaliyyətinə etiraz edir:

"Mən, Qasımov Hilal Zülal oğlu, yazaraq sizdən xahiş edirəm ki, başıma açılan bu haqszılığı işıqlandırasınız. Bildirim ki, sahibkaram, Naxçıvan şəhərində "Kassap" dönər obyektini işlədirəm. Dönərxanamdan dönər alıb yeyən 7 nəfər zəhərləndi. Səlahiyyətli qurumlar gəlib obyekti bağladı, 1 həftə sonra işimizə davam etdik. 5 gün işlədikdən sonra yeni-





dən obyektdən dönər alan 17 nəfərin zəhərlənməsi xəbərini eşitdik. Məsələ artıq ciddi şəkildə bizi narahat edirdi. Aldığımız şirkətin ətindən analiz üçün laboratoriyaya göndərdik. Bu zaman məlum oldu ki, ətdə "e-coli" bakteriyası aşkarlanıb. Aldığımız dönər üçün ət məhsulu "Cahan Holdinq"in təşkil etdiyi, Bakı şəhərindən gələn "Saf Ət" MMC-yə məxsusdur. Maraqlısı budur ki, tək bizə yox, Azərbaycanın bir çox yerlərinə ət satan şirkət günahını boynuna almaq istəmir. Hər iki şirkət bu məsuliyyətdən yayınır.

Bizə külli miqdarda ziyan dəyib, müştəri itirmişik. Bu, bizim yox, "Saf Ət MMC"nin və "Cahan" Holdinq"in səhvidir. Lakin rəsmi qurumlar da buna göz yumur. Təəssüflə qeyd edirəm ki, zəhərlənən 17 nəfərin arasında hamilə qadın da var idi.

İnsanların həyatını heçə saymaq olmaz. Bakteriyalı əti satırsız, bəs fikirləşmirsiz ölən olar? Yox, fikirləşmirsiniz. Çünki sizə ziyan dəymir. Ziyan hər zaman gücsüzə, arxasında "dayı"sı olmayana dəyir. Qida Təhlükəsizliyi Agentliyi niyə bir tərəfi cərimələməkdə, günahlandırmaqda maraqlıdır? Əti aldığımız şirkət niyə məsuliyyətə cəlb olunmur? Yəni ölkədə bu qədər haqsızlıq baş alıb gedir. Əti hardan aldığıma dair və analizin kağızlarını da sizə göndərirəm. Bu vasitə ilə bəlkə yatmış qurumlar oyana".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzunu araşdıracağıq. Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**




# Türkün birliyinə uzanan "çirkli əllər"

## TRT-nin Urmiyə haqqındakı verilişi düşünülmüş anti-türk aktıdır

**Güneyli-Quzeyli Azərbaycan türkləri son dövrlərdə dünya türklərinin milli azadlıq mayakı olan Türkiyəmizin beynəlxalq müstəvidə söz sahibinə çevrilməsini böyük ümid və ruh yüksəkliyi ilə izləməkdədir. Xüsusilə erməni-rus alyansının son 30 ildə işğal edib, xarabalığa çevirdiyi Azərbaycanın cənnət guşəsi Qarabağ torpaqlarından çıxarılmasında haqlı olaraq daim, dövrümüzün ikinci Atatürkü adlandırdığımız sayın Rəcəb Tayyıp Ərdoğanın şəxsində Türkiyəmizin mühüm rolu olduğunu nəzərə alaraq, beynəlxalq proseslərin ən azı Güney Azərbaycanımızın torpaqlarının və onun 45 (qırx beş) milyon civarında olan Azərbaycan və 5 (beş) milyon civarında olan türkmənlərin bütövlükdə, 63 milyon civarında olan Qacar yurdu türklərinin doğma milli torpaqları ilə birgə şovinist fars faşizminin 100 (yüz) ildən bəri davam edən əsarətindən qurtarılması ilə yanaşı, Türkiyə, Bütöv Azərbaycan, Bütöv Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Quzey Kipr türklərinin torpaqları ilə birlikdə cəmiyyətlərinin də bütövləşərək vahid iqtisadi, hərbi, siyasi cəhətdən dünyada söz sahibinə çevriləcəyinə ümidlərimiz son dərəcədə artıb. Bunu dünənə qədər de-yure rus imperiyasından 34 (otuz dövrd) il bundan qabaq ayrılmış 5 (beş) türk respublikası rəhbərlərinin davranışlarında, de-fakto bu əsarətdən qurtara bilmədikləri aydın göründüyü halda, hazırda bu ölkə rəhbərlərinin müstəqil davranışı, qərarları onların artıq türk milli birliyi ideyası altında Türkiyəmiz ətrafında birləşməyə yönəldiyini göstərir. Məhz bu amil 100 (yüz) ildən bəri, 54 (əlli dörd) il şahlıq, 46 (qırx altı) il şovinist fars molla faşizmin daim qətliamlara, assimilyasiyaya, hər cür fəlakətə məruz qoyduğu bu gün İran, yəni farsdillilərin yaşadığı ərazi adlandırılan türk Qacar yurdunda öz milli ərazilərində yaşayan 63 milyon civarında türkün tezliklə milli azadlığa qovuşacağını düşünməyə real əsas verir.**

***(Əvvəli ötən sayımızda)***

Bu gün nəinki dünya türklərinin, hətta Türk Dövlətləri Təşkilatı üzvləri olan dövlətlərin arasında ən əhəmiyyətli və ilk növbədə reallaşdırılmalı olan iqtisadi, hərbi sahələrdəki intensiv inteqrasiya qarşısında ən azından bir neçə ciddi maneələr durur. Həttə böyüklü-kiçikli türk düşmənlərinin bu prosesə gizli-aşkar maneələr törətməsini bir kənara qoysaq belə, burada türk dövlətləri başçılarının şəxsi mənafe və ambisiyaları, ümumtürk ədəbi dilinin mövcud olmaması və türkləri min ildən çox dövrdən bəri ideoloji cəhətdən parçalayıb, hətta türk dövlət və toplumlarının bir-birinə düşmən münasibəti belə sərgiləməsinə səbəb olan din amili də mövcuddur. Məsələn, son günlərdə Fələstin-İsrail, İran-İsrail hərbi toqquşmasını Türkiyə cəmiyyətindəki insnaların əksəriyyəti dini nöqteyi-nəzərdən dəyərləndirərək, bu məsələni milli maraqları, daha dəqiq desək Fələstin ərəblərinin və əslində müsəlman olmayıb, müsəlman çuluna bürünmüş - islam dininin düşmənləri olan şovinist fars molla faşizminin Azərbaycana, Türkiyəyə və ümumilikdə türk millətinə qarşı daim açıq sərgilədiyi barışmaz qatı düşmənçiliyinə adekvat münasibət sərgiləyən Azərbaycan dövləti və vətəndaşlarına qarşı Türkiyədə neqativ münasibət, çıxışlar sərgiləndi. Məhz belə anormal proseslərin nəticəsidir ki, 10 iyul 2025-ci ildə Türkiyənin ən böyük və nüfuzlu media vasitəsi olan TRT-nin TRT kürd kanalında Güney Azərbaycanın Urmu vilayəti videogörüntülərin müşayiəti ilə "Kürdüstan" ərazisi kimi qələmə verildi. Bu, ortaya bir çox əsaslı suallar qoyur. Həm də bu olayın PKK-nın rəsmən silahı yerə qoyması barədə elan edilməsindən dərhal sonra baş verməsi heç də təsadüfi olmayıb, bir çox məsələlərdən xəbər verir.



İlk növbədə Türkiyə dövləti PKK-nın uzun illər ölkə daxilində törətdiyi qanlı cinayətlərindən sonra kürd silahlılarının ölkə daxilindən çıxarmaqla yanaşı, qonşu Suriyada ABŞ-ın öz himayəsində olan kürd silahlılarından, İraqdakı kimi "Kürdüstan" dövləti yaradaraq Türkiyənin ətrafında "Anakonda kəməri" yaratmasına imkan verməməsi, bu "kəmərin" mərkəzi qovşağını Güney Azərbaycan ərazilərində kürdəlri yerləşdirərək formalaşdırmaqla məşğul olan İranın və Rusiyanın özünü də Suriyadan çıxardıqdan sonra, ilk baxışda kürdlərin obyektiv reallığı dərk edərək, bu ölkələrin oyuncağı olmaqdan və türkiyə vətəndaşı olaraq rahat yaşayacaqlarını düşünmək olardı. Lakin tarix boyu baş verən proses və hadisələri əks etdirən faktlar bunun belə olmayacağını aksioma olaraq təsdiqlədiyi kimi, irili-xırdalı türk düşmənlərinin bu gün Türkiyə, digər türk dövlətlərinə qarşı nümayiş etdirdiyi düşmənçiliyi məntiqlə dünya gücləri olan türk düşmənlərinin Türkiyə daxilində bundan sonra da erməni, kürd kartından aktiv istifadə edəcəyini göstərirdi. Başqa cür ola da bilməzdi.

İlk növbədə Türkiyə dövləti PKK-nın uzun illər ölkə daxilində törətdiyi qanlı cinayətlərindən sonra kürd silahlılarının ölkə daxilindən çıxarmaqla yanaşı, qonşu Suriyada ABŞ-ın öz himayəsində olan kürd silahlılarından, İraqdakı kimi «Kürdüstan» dövləti yaradaraq Türkiyənin ətrafında «Anakonda kəməri» yaratmasına imkan verməməsi, bu «kəmərin» mərkəzi qovşağını Güney Azərbaycan ərazilərində kürdəlri yerləşdirərək formalaşdırmaqla məşğul olan İranın və Rusiyanın özünü də Suriyadan çıxardıqdan sonra, ilk baxışda kürdlərin obyektiv reallığı dərk edərək, bu ölkələrin oyuncağı olmaqdan və türkiyə vətəndaşı olaraq rahat yaşayacaqlarını düşünmək olardı.

TRT-nin Güney Azərbaycan türk milli ərazisinin önəmli tarixi, strateji bir hissəsi olan Urmunu, Makunu, Xoyu, Sulduzu kürd milli əraziləri kimi qələmə verməsi bunun ilk sübutu oldu. Həm də bu təbliğatın, özünü islam dövləti adlandırıb, əslində Ərəb milli ideologiyası olub. Türkiyə türklərinin də daşıyıcısı olduğu klassik (Peyğəmbər və sünnəyə əsaslanan) islama barışmaz, qatı düşmən olmaqla bərabər şovinist fars molla faşizminin milli ideologiyası, şiəlik əsasında qurulmuş fars dövlətinin əsarətində olan 63 milyon civarındakı türk millətinin həm milli ərazisi, həm də türk toplumu olaraq ən böyük türk toplumu olan, Güney Azərbaycan torpaqlarının "Kürdüstan" kimi qələmə verilməsi, ilk növbədə dünyada Türkiyədən sonra ikinci ən böyük türk toplumu olub, artıq tarixdə özünü doğrultmuş sünnü-şiə düşüncəsi əsasında iki türk toplumunu birbirinə yadlaşdıran, bu iki türk toplumu arasında qanlı, faciəli Çaldıran döyüşünün başqa səpkidə həyata keçirilməsidir. Yəni, ərəb islamının daşıyıcıları olan Türkiyə türklərinin şüurunda türk millətinə heç bir aidiyyatı olmayan şiə torpaqlarının kürdləşdirilməsinə biganəlik sindromunun yaradılması cəhdidir. Eyni zamanda, 1925-ci ildə Qərbin çevriliş yolu ilə Qacar türk yurdunda hakimiyyəti ələ keçirən fars faşizminin 1930-cu ildə bu ərazini üç Hind-Avropa dil qrupundan biri olan farsdilli qrupun adı ilə İran, yəni farsdillilərin yaşadığı yer, adlandırmaqla həmidə bu ərazinin fars milli ərazisi olması haqqında saxta təsəvvürün formalaşdırılmasının davamıdır. Bu isə təkcə Güney Azərbaycanda türklərin təklənərək, əridilib yox edilməsi olmayıb, Tehran rejiminin müstəqil Quzey Azərbaycan türk dövlətinin ərazilərinə saxta iddiasını süni surətdə əsaslandırmaq üçün hava və su kimi vazkeçilməzdir.

Tehran rejiminin maliyyələşdirib Güney Azərbaycan türklərinə qarşı kürd separatistlərinin əli ilə həyata keçirdiyi bu ideoloji terror aktı həm də Türkiyə dövlətinin buna görə silahı yerə qoymuş PKK-çılara sərt reaksiya verməsinə nail olaraq bu prosesi pozmaq niyyəti güdür. Ancaq yaddan çıxarılar ki, min ildən bəri farsların, bütün qəbillərindən olan fahişəliklərini, 200 ildən bəri ermənilərin, 100 ildən bəri farsların hiyləgərliyinin, qorxaqlığının, cinayətkarlığının dəfələrlə şahidi olan türkləri aldadaraq daha, dini nağıllarının, nə Anaid məbədindən miras qalmış gözəlçələrinin, nə də ki, şirin dil vasitəsilə türkü türkə düşmən edə bilməyəcək.

Çünki, Bakı-Təbriz-Ankara qatarı, Türküstanla birgə artıq TURANA doğru yol alıb.

**Şapur QASİMİ**

2014/15-ci illərdə dünya birjalarında enerji qiymətlərinin kəskin şəkildə azalması digər neft istehsal edən ölkələr kimi Azərbaycanda da ciddi təşviş yaratdı. Həm hakimiyyət, həm də müxalifət nümayəndələri bu prosesin davamlılığı halında ölkəmizi gözləyən böhranı eninə-uzuna müzakirə etməyə başladılar. Yeganə çarəni isə qeyri-neft sektorunun inkişafında gördülər və kənd təsərrüfatını bu sektorun prioritet sahəsi elan etdilər. Təsadüfi deyildi ki, 2015-ci il Kənd təsərrüfatı ili elan olundu və bütün diqqətlər bu sahənin inkişafına yönəldi.



# Məcnun Məmmədovun “dostlar kabineti”

## Və yaxud kənd təsərrüfatımızın inkişaf etməməsinin başlıca səbəbləri...





Həmin il Prezident İlham Əliyevin imzaladığı “Kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam da haqqında danışdığımız sahəyə necə böyük ümidlərin bağlandığının işarəsidir. Sərəncamda bildirilirdi: “İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioritetlərindəndir”.

Sərəncamın bu ilk cümləsindən də aydın olur ki, 10 il əvvəl kənd təsərrüfatı sahəsi Azərbaycanın iqtisadi inkişafının əsas təməli və özünüqoruma sığortası olaraq görülürdü.

Dünya yeni bir enerji böhranına hazırlaşır. Ukrayna-Rusiya müharibəsi səbəbilə Qərb ölkələri şimal qonşumuza ağır zərbə vurmaq üçün neft və qazın qiymətlərinin ucuzlaşdırılması istiqamətində bir çox versiyaları müzakirə masasına yatırıblar. Sözsüz ki, Rusiyaya qarşı hazırlanan tədbirlərin bir zərbəsi də bizim neft və qaz sektorumuza dəyə bilər. Bəs, biz ölkəmizi gözləyən yeni enerji böhranına nə qədər hazırıq? 2014/2015 böhranından lazımi dərslər almışıqmı? Həmin dövrlərdə qarşıya qoyduğumuz hədəfləri nə qədər reallaşdıra bilmişik?

Nə yazıq ki, ölkə rəhbərliyini və ictimaiyyətimizi ciddi düşündürməli olan bu suallara müsbət cavab vermək mümkün deyil. 44 günlük Qarabağ zəfərimizdən sonra ümumiyyətlə kənd təsərrüfatı və qeyri-neft sektorunun inkişafı məsələlərini tamamilə unutmuş kimiyik. Ən pisi isə odur ki, bu sektorun inkişafına birbaşa cavabdeh olan KTN-dən tükürpədici məlumatlar gəlməkdədir.

Adının açıqlanmasını istəməyən mənbənin ”Ovqat.com”-a bildirdiyinə görə, təzə nazir Məcnun Məmmədov kreslosunda oturan kimi köhnə komandanın böyük əksəriyyətini işdən uzaqlaşdırıb və yerlərinə öz yaxın dostlarını gətirib.

“Məcnun Məmmədovun 5 müşaviri var, hamısını da əvvəl işlədiyi holdinqdən gətirib və hər birinə 15-20 min manat paket verir. Bunlardan biri Zaur Əliyevdir. Nazirin tələbə yoldaşı olduğu deyilir. FETÖ ilə əlaqəsi barədə ciddi iddialar səsləndirilir”, - mənbə iddia edir.

Sayt bunu sübut edən yetərli dəlillər olmadığından qəti fikir söyləyə bilmir, iddianı araşdırmağı müvafiq orqanlara həvalə edir.

### KTN, yoxsa Vatikan kilsəsi?

Digər iddialara görə, Zaur Əliyev bütün qurumlara öz adamlarını yerləşdirib və yaxın zamanlarda nazir müavini olmağa hazırlaşır: “Ona və digər müşavirlərə söz demək olmur. Dərhal bir-birini müdafiə edir və səni “aforoz” edirlər. KTN-ni rəsmən papaya söz deyilməsi mümkün olmayan Vatikan kilsəsinə çeviriblər. Hamısına da xidməti maşınlar verilib - sürücüləri, katibələri və s. ilə bir yerdə. İşləri-gücləri tenderləri öz adamlarına verməkdir. Hamısını bir əldən edirlər”.

### Həyatı “perevod” və transferlərlə dolu olan müşavir

Məcnun Məmmədovun digər müşaviri Fərid Nəcəfovdur. Ötən ilin iyul ayında bu vəzifəyə təyin olunub. Nazirin kadr siyasətinə nəzarət edir. Yəni KTN-ə təyin olunan hər kəsin sənədi bu adamın əlinin altından keçir. Mətbuata verilən rəsmi məlumatlarda onun harada təhsil aldığı göstərilmir.

KTN-dəki mənbələrin verdiyi məlumatlar isə olduqca maraqlıdır və yəqin ki, sözügedən konfidensiallıq müəmmasına aydınlıq gətirəcək mahiyyətdədir: “Fərid Nəcəfov orta məktəbi bitirdikdən sonra qəbul imtahanına girmədən Dağıstandakı bir universitetə daxil olub. Guya orada 1-2 il təhsil aldıqdan sonra Azərbaycanda bir universitetə “perevod” olunub. Bu “perevod”dan sonra onun karyerasının qızıl çağları başlayıb. Əvvəl “Gilan Holding”ə, sonra isə KTN-ə transfer olunub. Özünün deyinə görə, “Gilan Holding”in İstehsalat, İnşaat, Pərakəndə satış sektorlarında İnsan Resursları şöbəsində böyük təcrübə qazanıb. Bir sözlə, bu böyük təcrübəyə malik adamın iş və təhsil həyatı müdhiş “perevod” və transferlərlə doludur”.

Mənbənin iddialarına görə, Dağıstan universitetlərindən birində “ilk nəzəri biliklər” alıb, “Gilan Holding”də bu nəzəri bilikləri böyük təcrübələrlə birləşdirən Fərid Nəcəfov KTN-də də bu qabiliyyətindən faydalanır: “Adlarını digər qurumlara yazdırıb Daxili nəzarət şöbəsinə ən azı əlavə 5 adam gətirib oturdub. Hamısı da qeyri-peşəkardır. Məhz o qeyri-peşəkarların sayəsində nazirliyi tam nəzarətə alıb”.

Məcnun Məmmədovun digər müşaviri Rövşən Həsənov da qeyri-adi bacarığı ilə digər həmkarlarından geri qalmır.



“Vaxtilə “MKT İK” MMC-nin direktoru vəzifəsində işləyən Rövşən Həsənov pambıq yığımına nəzarət edib. İddialara görə, rəhbərlik etdiyi şirkətə milyonlarla pul atıb, gəlib KTN-ə”, - mənbə bildirib.

### Məcnun Məmmədovun ən “qənaətcil” kadrı “revizorun payı” ilə dolanır

Digər iki müşavir barədə də bəzi ilginc məlumatlar verən mənbə ən maraqlı iddiaları “Aqrar Xidmətlər Agentliyi” və “Aqrolizinq”lə bağlıdır.

İddialara görə, 2 noyabr 2023-cü il tarixində nazir Məcnun Məmmədovun imzaladığı əmrlə Aqrar Xidmətlər Agentliyinin (AXA) sədri vəzifəsinə təyin olunan Sərdar Hacıyev bundan əvvəl “Yalama Aqropark” MMC-nin İdarə Heyətinə rəhbərlik edib. Onun da nazirin xüsusi diqqəti sayəsində ayda 15-20 min manat “maaş əlavəsi” aldığı vurğulanır.

Maraqlıdır ki, Sərdar Hacıyevin hazırda rəhbərlik etdiyi qurum Prezident İlham Əliyevin 14 yanvar 2019-cu il tarixli fərmanı ilə yaradılıb. Əsas təyinatlarından biri isə “aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması, səmərəliliyinin artırılması, həmin xidmətlərin daha az resurs sərf etməklə həyata keçirilməsi, dövlət vəsaitinə qənaət edilməklə bu sahədə inzibati idarəetmənin təkmilləşdirilməsi”dir. Yəni Sərdar Hacıyev əslində “daha az resursla” dövlət siyasətinin həyata keçirilməsinə və qənaətə nəzarət etməklə məşğuldur. Özü isə, necə deyərlər, “revizorun payı”ndan “əmək haqqı” alır. Bundan əlavə, Sərdar Hacıyevin ailə üzvlərindən birinin “Sadval işi” üstündə həbsdə yatdığı da bildirilir.



### Heyvan xəstəliklərinin adını bilməyən baş baytar

AXA-ya yeni təyinatlarla bağlı digər maraqlı iddia quruma sədr müavini təyin olunan Elməddin Namazovla bağlıdır. Bildirilir ki, Elməddin Namazov aqrokimya fakültəsini bitirməsinə baxmayaraq, ölkənin baytarlığına rəhbərlik edir.

Heyvan xəstəliklərinin adını belə bilməyən bu adamın həmin vəzifəyə təyin olunması hər kəsdə təəccüb doğurub. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan ofisində indiki AXA sədri Sərdar Hacıyevlə bir yerdə işlədiyi bildirilən Elməddin Namazovun məhz bu səbəbdən həmin vəzifəyə gətirildiyi deyilir. Yəni adamın yeganə işgüzar keyfiyyəti öz sədrlə eyni qeyri-hökumət təşkilatında işləməsi olmuşdur.

### “Şərikli çörək” - laborant-məmur

AXA-nın yeni təyin edilən sədr müavini Taleh Zeynalovun isə nazirin biznes şəriki olduğuna dair iddialar var.

Bildirildiyinə görə, nazir ilə Taleh Zeynalov Qusarda birlikdə bağ salıblar. Əvvəllər hansısa idarədə laborant işləyən Taleh Zeynalov torpaq analizi ilə məşğul olub. İndi isə AXA kimi önəmli bir quruma sədr müavini vəzifəsinə gətirilib.

### “Aqroservis” ASC-yə Gürcüstan vətəndaşı rəhbərlik edir

KTN-nin bir başqa maraqlı kadrı Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan “Aqroservis” ASC-nin İdarə Heyətinin sədri vəzifəsini icra edən Mehman Veysəlovdur. İnsafən, Mehman Veysəlov tərcümeyi-halına baxıldığında Məcnun Məmmədovun bəzi müşavirlərindən xeyli savadlı kadr təsiri bağışlayır. O, Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və kredit ixtisası üzrə bakalavr təhsili alıb, Oksford Universiteti “Said Biznes Məktəbi”nin Strateji idarəçilik Proqramını bitirib. Qlobal nüfuzlu Böyük Britaniyanın Peşəkar Mühasib və Maliyyəçilər Assosiasiyasının (“ACCA”) Beynəlxalq Hesabatlılıq üzrə Diplomunu əldə edib. “Intellekt” MMC-də icraçı direktor, audit və konsaltinq xidmətləri təqdim edən “Böyük dördlük” hesab olunan PWC Azərbaycanda baş konsultant, KPMG Azərbaycanda vergi meneceri, Vergi Məsləhətləri Xidmətinin rəhbəri, TAAC DMCC şirkətində maliyyə rəhbəri vəzifəsində çalışıb və s.



Bununla belə, onun çatışmayan bir özəl durumu var. O, dövlət orqanında işləməsinə baxmayaraq, Azərbaycan vətəndaşı deyil. Gürcüstan vətəndaşı olan Mehman Veysəlovun bu xüsusiyyəti onun nazirliyə bağlı qurumda işləməsinə imkan vermir.

### Çətin tapmaca: bu adamlar maaşı az olan vəzifələrə niyə axışıblar?

KTN-nin müxtəlif idarələrinə yeni təyin olunan şəxslərin əvvəllər özəl sektorlarda çalışdıqlarını və kifayət qədər yaxşı maaş aldıqlarını bildirən mənbə onların birdən-birə nazirliyə gəlməyə razılıq verməsinin normal olmadığını düşünür: “Gəldikləri yerdə 8-10 min maaş alan işçi niyə görə gəlib burada 1,5-2 minə işləsin? Deməli, Məcnun Məmmədov onlara yaxşı maraq yaradır deyə, hamısı nazirliyə axışır.



Üstəlik, qanunda belə bir müddəa var ki, dövlət idarəçiliyində rəhbər vəzifəyə təyin olunmaq üçün ən azı beş il stajın olmalıdır. Bunların iş stajında isə heç bir gün belə yoxdur”.

“Görünür, elə bu səbəbdən də KTN-də belə bir fikir dolaşır: Məcnun Məmmədov nazirliyi dövlət qanunları ilə yox, özünün şəxsi maraqları və ambisiyaları ilə idarə edir”, - deyə fikrini yekunlaşdırıb

**Hazırladı: İ. SABİRQIZI**

**P.S. Yazıda adı keçən şəxslərin də fikirlərini işıqlandırmağa hazırıq.**

# 30 ildir evini zəbt edib, çıxmaq üçün 20 min manat tələb edir

## Sumqayıt sakini evinin boşaldılması ilə bağlı məhkəmə qərarının icra olunmamasından şikayətçidir



"Sumqayıtın icra başçısı Zakir Fərəcov tapşırıq verdi ki, vətəndaşın evini bir həftəyə boşaldın. Lakin İcra şöbəsi hansısa maraqlarına görə şikayətə baxmır. İcra məmuru deyir ki, gedin, kimə istəyirsiniz şikayət edin"

**Sumqayıt şəhər sakini Verdiyev Alik Vəkil oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Ədliyyə Nazirliyindən şikayət edən A.Verdiyevin müraciətini olduğu kimi dərc edirik:**

"Mən, Verdiyev Alik Vəkil oğlu, yazaraq bildirirəm ki, Sumqayıt şəhəri, 12-ci mikrorayonda yerləşən 4 otaqlı evimiz 30 ildir qaçqınlar tərəfindən mənimsənilib. Məhkəmə qərarı olmasına baxmayaraq, evdən çıxmırlar.

Ədliyyə Nazirliyinin İcra Probasiya şöbəsi məhkəmə qərarını icra etmir. İcra məmuru Mirelnur Musəvi açıq şəkildə işimizə baxmır.

"Qaçqınkom"a da müraciət etmişik. Onlar evimdə məskunlaşan qaçqına ev təklif etdilər, lakin yenə də evimdən çıxmırlar.

Sumqayıt Şəhər İcra Hakimiyyətinə də məsləni izah etmişəm. İcra başçısı Zakir Fərəcov tapşırıq verdi ki, vətəndaşın evini bir həftəyə boşaldın. Lakin İcra şöbəsi hansısa maraqlarına görə şikayətə baxmır. İcra məmuru "gedin şikayətinizi kimə istəyirsiz deyin", - bildirir.

İcra məmurunun özü də qaçqındır, məhz bu kimi səbəblərdən də onlara kömək etdiyini düşünürəm. Əlbəttə, başqa maddi maraqlarının olduğu da danılmazdır. Ümumiyyətlə, icra məmurları deməkolar ki, məhkəmə qərarını veclərinə almırlar.

Evimi zəbt edən, öz evimdən çıxmaq üçün mənə şərt qoşan qaçqının səs yazısını da sizə göndərirəm. Baxın, görün bu qadın bu qədər cəsarəti hardan alır?! Evimdən çıxmaq üçün məndən külli miqdarda - 20 min manat pul istəyir. "Yoxsa, çıxmıram" deyir.

Mən sizin sayt vasitəsilə bütün səlahiyyətli qurumlardan xahiş edirəm, evimin boşaldılaraq mənə verilməsinə kömək edin. Torpaqlarımız işğal altında olduğu üçün indiyədək susdum, ayıb bildim. Amma artıq dözə bilmirəm. Mənim də ailəm var, əziyyətlə aldığım mülkü nəyə görə kimsə mənimsəməlidir?!

Qaçqın statusu var deyə yerli sakinlərin hər şeyini mənimsəmək olmaz.

Hörmətli Ədliyyə naziri Fərid Əhmədov!

Təəssüflə qeyd edirəm ki, icra məmurları biz vətəndaşların haqqını tələb etmir, öz maraqları üçün yaşayırlar. Sizin bu olanları görməyiniz üçün biz nə etməliyik? Nə qədər haqsızlığa boyun əyək? Əlimdə olan səs yazılarını sizə təqdim etməyə hazıram".

**Jalə FAMİLQIZI**

**P.S. Təəssüflə qeyd edirik ki, Ədliyyə Nazirliyinə edilən müraciətlər cavabsız qalır. Qurumun mətbuat xidməti isə, şikayətləri ancaq qaynar xəttə və yaxud da işləməyən e-mail ünvanına yönləndirir. Maraqlıdır, mətbuatın suallarını cavablandırmayan mətbuat xidmətinin işçilərinə görə niyə büdcəyə ziyan dəyməlidir?! Mətbuat xidməti "quru maket" kimi fəaliyyətini davam etdirəcəksə, nəyə gərəkdir?!**

**Məsələ ilə bağlı hazırda evdə yaşayan Mehriban xanımla əlaqə saxladıq. Xanım suallarımızı cavabsız qoydu.**

**P.P.S. Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**



# Gəncədə bacılar arasında mal-mülk davası

## Evini satıb, pulunu müvəqqəti saxlamaq üçün bacısına verdi, amma... -

**Gəncə şəhər sakini Tünzalə Əsgərova Hilal qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, haqsızlıq üzləşib, bacıları ona aid olan əşyaları oğurlayıb:**

"Mən, Əsgərova Tünzalə, yazaraq bildirirəm ki, 2014-cü ildə evimi satmışam. Yeni ev alana qədər 32 min dollar pulu müvəqqəti saxlamaq üçün bacım Əsgərova Ziyafətə verdim. Evimin əşyalarını isə bacım Süleymanova Yazgülün evində bir otağa yerləşdirdim, otağın açarını isə özümlə götürdüm.

Bir müddət sonra bacımdan evimin pulunu tələb etdikdə, Əsgərova Ziyafət pulu qaytarmaq istəmədi. Məcbur qalıb, məhkəməyə müraciət etdim. Hakim qərar qəbul etdi ki, həmin pulun 25 min manatı mənə qaytarılsın.

Sonradan digər bacım Yazgül əşyalarımın, pulumun və qızılımın bacılarım Əsgərova Ziyafət və Əsgərova Səxavət tərəfindən oğurlandığını bildirdi. Polisə şikayət etdim. Evləri axtarıldı və mənə aid əşyalar tapıldı. Ekspertizada təsdiq olundu ki, əşyalar mənə aiddir. Əsgərova Səxavətin evindən əl yazmam da çıxdı. Üstəlik, paltarlardan DNT testi götürüldü, mənə aid olduğu ortaya çıxdı.

Birinci instansiya məhkəməsi Əsgərova Səxavət və Əsgərova Ziyafətin hər birinə 2 il ev dustağlığı cəzası verdi. Apellyasiya şikayəti verdim, qərar qüvvədə qaldı. Ali Məhkəməyə müraciət etdim, hakim Rəşad Abdulov bu qədər sübut və dəlillərin, şahid ifadələrinin olmasına baxmayaraq, yetərsiz hesab etdi və işə yenidən baxılması üçün Apellyasiya Məhkəməsinə geri qaytardı.

Əşyalarımın hamısı küçəyə tökülüb, artıq 4 ildir ki, orada yararsız vəziyyətə düşüb. Eyni zamanda, məhkum olunmuş şəxslər əsassız olaraq məhkəməyə verir ki, güya, onların şərəf və ləyaqətini alçaltmışam. Dəfələrlə cərimə etdiriblər.

Xahiş edirəm, ədalətin öz yerini tapmasına kömək edəsiniz".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# "Anamın "qan pulu"nu batırırlar"

## Gəncə sakini: "Deyirlər ki, anan iş vaxtı ölməyib..."

**Gəncə şəhər sakini Surayya Rəşad Nəriman oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. O, iş vaxtı ölən anasının sığorta pulunu ala bilmədiyindən şikayətlənir:**

"Mən, Surayya Rəşad Nəriman oğlu, yazaraq xahiş edirəm ki, şikayətimi ictimailəşdirəsiniz.

Bildirim ki, 2024-cü il, yanvarın 26-da iş vaxtı maşın vurması nəticəsində anam vəfat etmişdir. Anam Gəncə şəhərində Mənzil-Kommunal Təsərrüfatı Departamentində işləyirdi. Şəhərin mərkəz küçələrinin birində qəza nəticəsində 13-gün reanimasiyada yatdı və rəhmətə getdi.

Anam 30 il idi ki, həmin qurumla əməkdaşlıq edirdi. Biz tək, ana-bala yaşayırdıq.

Sığorta şirkətindən deyirlər ki, anan iş vaxtı ölməyib, iş vaxtı ölsəydi, işlədiyi yer bizə göndərdiyi sənəddə bunu qeyd edərdi. Əlavə edirlər ki, get problemini




Mənzil-Kommunal Təsərrüfatı Departamentinə bildir.

Bir sözlə, anamın "qan pulu"nu batırırlar. Əmək Müfəttişliyi günahı Mənzil-Kommunal Təsərrüfatı Departamentində görür. 1 ildir bu iki qurumun arasında qalmışam, lakin müsbət cavab yoxdur".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların mövqeyini dərc etməyə hazırıq.**

**Dünya gündəminin son günlər ən gərgin və geniş müzakirə mövzusu "Zəngəzur Dəhlizi-Tramp Yolu"dur desək, yanılmarıq. Şimal Türküstanı (Mərkəzi Asiya) Xəzər dənizindən keçməklə, Güney Qafqazdan adlayaraq Avropaya bağayan Orta Dəhliz elə dünya siyasət masasının ortasında - mərkəzindədir. Regionda özünü, nüfuzunu təsdiqləmək, regional, hətta qlobal logistika layihəsində özünü görmək istəyən dövlətlər maraqları uğrunda "buynuzlaşma"nı davam etdirirlər.**




# Zəngəzur dəhlizinin region ölkələri

## Və yaxud İran baçada olmaqla, bəzi dövlətlər niyə bu dəhlizin açılmasına qarşıdır?

### Moskva ilə Tehranın mövqeləri indi də üst-üstə düşür, regionun rifahı və asayişi isə 3 ölkənin - Azərbaycan, Türkiyə, Ermənistanın bir-birinə nə qədər yaxınlaşa biləcəyindən asılıdır...

Rusiyanın məsələyə aqressiv baxışı aydındır, Kremlin rəyini onun dilindən ekspert qismində danışanlar gözəl nümayiş etdirirlər. Əslində, Kremlin ruporları ABŞ-dan yox, Türkiyədən narahatdırlar, çünki Zəngəzur dəhlizinin reallaşmasının ən çox Türkiyəyə dividend gətirəcəyini hesablayırlar. Dəhlizlə bağlı gəlişmələrə münasibətini Türkiyənin SABAH qəzetində açıqlayan Uludağ Universitetinin (Türkiyə) İqtisadiyyat professoru Mehmet Yüce bildirib ki, Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi Azərbaycanın regional nəqliyyat və enerji mərkəzi kimi mövqeyini möhkəmləndirməyə imkan verəcək.

Ekspert məqaləsində qeyd edib ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderləri arasında əldə olunan razılaşmalar regionun iqtisadi inkişafı üçün yeni imkanlar yaradır.

"Azərbaycan dəhliz vasitəsilə tranzitdən əhəmiyyətli gəlirlər əldə edəcək ki, bu da qeyri-neft sektoruna və işğaldan azad edilmiş ərazilərə investisiya cəlb edəcək", deyə Yuce vurğulayıb.

Onun fikrincə, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin bərpası Cənubi Qafqazda qüvvələr balansını dəyişəcək.

Ekspert onu da qeyd edib ki, Vaşinqton görüşü 2020-ci ilin 44 günlük müharibəsinin nəticələrinin rəsmi tanınması idi.

Türkiyəyə gəlincə, Yucenin fikrincə, dəhlizin açılması rəsmi Ankaranın regionda mövqelərini gücləndirəcək.

"Ankara Mərkəzi Asiyanın türk ölkələrinə birbaşa çıxış əldə edəcək ki, bu da onun təsirini gücləndirəcək", deyə o izah edib.

Zəngəzur dəhlizi Avropa və Asiyanı birləşdirən beynəlxalq nəqliyyat marşrutlarının əsas halqası hesab olunur. Ekspertin fikrincə, onun həyata keçirilməsi təkcə Azərbaycanın deyil, həm də qonşu dövlətlərin, o cümlədən Ermənistanın iqtisadi inkişafına töhfə verə bilər.

Məsələyə dair digər ekspertlərin də fikirləri maraqlıdır. Özbəkistanın paytaxtı Daşkənd şəhərində yerləşən "Mano" Tədqiqat Təşəbbüsləri Mərkəzinin direktoru Baxtiyor Erqaşevin fikrinə nəzər salmağa dəyər. O bildirir ki, Zəngəzur dəhlizi məsələsi mürəkkəb və çoxqatlıdır, ona görə də diqqətli, hərtərəfli təhlil tələb edir və Ermənistan, Azərbaycan və ABŞ prezidentlərinin Vaşinqtonda imzaladığı sazişlərə dair səthi şərhlər çox vaxt bütün əsas aspektləri əhatə etmir.

Erqaşev bildirir ki, bunlardan birincisi iqtisadi, nəqliyyat və logistikadır. "Orta Dəhliz Çindən Mərkəzi Asiya, Xəzər dənizi, Cənubi Qafqazdan Türkiyəyə, oradan isə Aralıq dənizi, Yaxın Şərq, Şimali Afrika və Cənubi Avropaya gedən marşrutlar şəbəkəsidir. Bu gün bu dəhlizdə əsas istiqamət 2019-cu ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti olaraq qalır. Bu xətt Azərbaycan, Gürcüstan və Gürcüstanın şəbəkələrini birləşdirir", deyən ekspert burada vacib bir məqama da diqqət O deyir ki, bununla Türkiyə və Bakı Ələt limanlarından qərbə əsas yük axınını təmin edir: "Dəmir yolu nəqliyyatı həcm və əhəmiyyətinə görə avtomobil nəqliyyatını xeyli üstələyir və bu, yeni sənədlərdə hətta simvolik adı verilən Zəngəzur marşrutunu - "Trampın Dostluq Körpüsü"nü qiymətləndirərkən nəzərə alınmalı olan amildir".

Ekpsertin fikrincə, Çin və Avropa arasında digər marşrutlara real alternativ olan bu marşrut Şərqi Avropada hərbi əməliyyatların başlanmasından, Aİ-nin Rusiyaya qarşı sanksiyalarından və cavab əks-sanksiyalarından sonra ciddi müzakirə olunub: "Şimal marşrutları üzrə dəmir yolu daşımalarının həcmi o qədər azalmasa da, avtomobil nəqliyyatı xeyli itkilərə məruz qalıb. Hərəkətə, xüsusən də yük daşımalarına məhdudiyyətlər digər marşrutların aktivləşdirilməsi üçün imkanlar açdı və Mərkəzi Asiya ölkələrini yeni logistik həllər axtarmağa məcbur etdi. Bu şəraitdə Orta Dəhlizin əhəmiyyəti kəskin şəkildə yüksəlib: 2022-ci ildən bu marşrut üzrə yükdaşımaların həcmi iki dəfədən çox artıb. Transxəzər nəqliyyat marşrutu əvvəllər nəzərdən keçirilməyən yeni yük növləri ilə aktiv şəkildə doldurulmağa başlanılıb - xüsusən də Qazaxıstan neftinin axını artıb, Azərbaycan limanlarına, sonra isə Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Türkiyənin dəniz terminallarına göndərilib".

Bu mənzərəni şərh edən Erqaşev deyir ki, eyni zamanda, dəhlizin əsas xüsusiyyətini, multimodallığını nəzərə almaq vacibdir.

Bildiyimiz kimi, yüklər dəmir yolu və avtomobil nəqliyyatı ilə Türkmənbaşı, Aktau, Kurık limanlarına çatdırılır, daha sonra dəniz yolu ilə Bakıya, Ələtə daşınır, oradan isə dəmir yolu, avtomobil yolu ilə və ya Qara dəniz limanları vasitəsilə, o cümlədən Türkiyə ərazisindən keçən marşrutla qərb istiqamətində səyahətinə davam edir. Bu formatda dəniz və quru kommunikasiyalarının birləşməsi nəqliyyatı daha bahalı edir: bir sıra maddələr üçün qiymət Qazaxıstan və Rusiyadan keçən Şimal marşrutu ilə müqayisədə bir yarım dəfə artır.

Amma ekspertlər bildirir ki, müharibə davam edərkən dəhlizin əhəmiyyəti artsa da, başa çatdıqdan sonra yük axınlarının bir hissəsi Şimal marşrutuna qayıda bilər ki, bu da Transxəzər marşrutunun real perspektivlərini qiymətləndirərkən nəzərə alınmalıdır.

"ABŞ-ın geostrategiyası ilkin olaraq Böyük Avrasiyada qitəni bir halqada birləşdirə bilən vahid nəqliyyat və logistika sisteminin yaradılmasına əsaslanır. Məsələ ABŞ-ın mövqeyində deyil, Aİ və Çinin yük formalaşdıran mərkəzlərinin ticarətin davam etdirilməsində nə dərəcədə maraqlı olması və Avropa sənayesinin struktur problemlərini nəzərə alaraq onun perspektivlərinin olub-olmamasıdır. Bu çətinliklər dünən yaranmayıb, onların mənşəyi 2008-2009-cu illərin qlobal böhranına gedib çıxır və uzunmüddətli tendensiya kimi qalır. Avropanın sənaye potensialı getdikcə azalır və sual olaraq qalır: o, Çini nə dərəcədə maraqlandıran məhsullarla təmin edə biləcək və nə dərəcədə Çin malları üçün ödəmə qabiliyyətinə malik bazar olaraq qala biləcək. Məzh bu əsas açar nüansdır, ABŞ, Böyük Britaniya və ya İsrailin hərəkətləri əsas deyil", Erqaşev şərh edir.

O, "dünya səhnəsində yeni iqtisadi fəaliyyət mərkəzi - Hin-

distan formalaşır", deyərək diqqəti bu ölkəyə də çəkir. Erqaşev Hindistanı vurğulamaqla qeyd edir ki, Şimal-Cənub istiqamətində transkontinental marşrutların inkişafı da vacibdir. Onun qənaətincə, Şərq-Qərb (Çin-Avropa) və Şimal-Cənub (Hindistan-Avropa) nəqliyyat dəhlizləri bir-birini tamamlayır və paralel olaraq inkişaf edəcək.

"Əsas odur ki, bu proseslərin dinamikası quru yolları (dəmir və avtomobil) Süveyş kanalı vasitəsilə dəniz daşımaları ilə və ya Şimal dəniz yolunun artan potensialı ilə nə dərəcədə rəqabət apara biləcək. Bütün bunlar iqtisadi müstəvidədir və beynəlxalq marşrutlar ətrafında siyasi oyunlar daha dərindir. Qazaxıstan və Türkmənistan Xəzər dənizinin şərq sahilində oxşar mövqe tuturlar: onlar da Şərq-Qərb və Şimal-Cənub marşrutlarının kəsişməsinin mühüm nöqtələrinə çevrilə bilərlər. Bu halda söhbət marşrutlar arasında rəqabətdən çox, onların bir-birini tamamlayıcı olmasından gedir. Xəzər dənizinin qərb sahilində Azərbaycandan, şərq sahilində isə Qazaxıstan və Türkmənistandan keçən nəqliyyat marşrutları mahiyyətcə bir-birini tamamlayır. Orta Asiyadan İran və Türkiyə ərazisindən keçən cənub dəmir yolu dəhlizi layihəsi də fəal müzakirə olunan, lakin hələ də həyata keçirilməmişdir. Onun əsas rəqabət üstünlüyü dəniz hissəsinin olmamasıdır.




# üçün nə kimi əhəmiyyəti var?

> "...Bu nəqliyyat dəhlizləri fərqli məqsədlər güddükləri və müxtəlif istiqamətlərə xidmət etdikləri üçün bir-birini daha çox tamamlayırlar. Bu kontekstdə Azərbaycan unikal coğrafi mövqeyə malikdir - ölkə qitənin Qərbi və Şərqi, Şimal və Cənubunu birləşdirən marşrutların kəsişməsində yerləşir və bu da onu Xəzər dənizinin qərb sahilində ən mühüm nəqliyyat qovşağına çevirir"

geoiqtisadi dəyişikliklərin yalnız xarici səthidir", ekspert deyir.

Erqaşev Rusiya üçün həyati əhəmiyyətli olan "Şimal-Cənub" dəhlizinə də toxunub. O bildirib ki, Qərb-Şərq və Şimal-Cənub dəhlizləri birbaşa mənada rəqabət aparmır, baxmayaraq ki, bəzi ekspertlər Şimal-Cənub istiqamətinin Çin üçün əlverişsiz ola biləcəyini düşünür, çünki bu, Hindistan məhsullarının Avropaya ixracı üçün əlavə nəqliyyat imkanları açır:

"Bu nəqliyyat dəhlizləri fərqli məqsədlər güddükləri və müxtəlif istiqamətlərə xidmət etdikləri üçün bir-birini daha çox tamamlayırlar. Bu kontekstdə Azərbaycan unikal coğrafi mövqeyə malikdir - ölkə qitənin Qərbi və Şərqi, Şimal və Cənubunu birləşdirən marşrutların kəsişməsində yerləşir və bu da onu Xəzər dənizinin qərb sahilində ən mühüm nəqliyyat qovşağına çevirir. Hesab edirəm ki, Azərbaycan iqtisadiyyatının gələcək perspektivləri daha çox onun əlverişli geosiyasi mövqeyindən praqmatik və səmərəli istifadə etməsindən asılıdır. Eyni zamanda, layihə Orta Asiya, İran və Türkiyə arasında birbaşa dəmir yolu əlaqəsini Aralıq dənizi limanlarına çıxışla çətinləşdirən bir sıra ciddi siyasi, texniki və texnoloji problemlərlə üzləşir. Ola bilsin ki, gələcəkdə yük axınının bir hissəsi bu marşrutla yönələcək". Əlbəttə, Erqaşevlə bu nöqtədə razılaşmaya bilərik. Burada cığallıq edən əsas fiqur Rusiyadır. Sual olunur niyə?

Zəngəzur dəhlizinin kəsb etdiyi əhəmiyyətə bir daha nəzər salaq. Erqaşev deyir ki, Zəngəzur dəhlizi Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir, çünki o, ölkənin materik hissəsi ilə Naxçıvan Muxtar Vilayəti arasında birbaşa nəqliyyat əlaqəsini açır, həmçinin Naxçıvan vasitəsilə Türkiyəyə çıxışı təmin edir. Belə bir marşrut potensial olaraq Azərbaycan və Türkiyə arasında Avropa bazarlarına çıxışla daha da təsirli bir əlaqə ola bilər. Ekspert layihənin texniki həyata keçirilməsindən çox deyil, onun siyasi və geosiyasi komponentinə də diqqət yetirir:

"Zəngəzur dəhlizi ətrafında gərgin diplomatik oyun davam edir və layihənin inkişafı məhz bu ölçüdə ləngiyir. Bu baxımdan, hazırda Bakı-Tbilisi- Qars Cənubi Qafqaz Dəmir Yolu marşrutu daha etibarlı və sınaqdan keçmiş olaraq qalır ki, bu da fəal şəkildə istifadə olunur: yüklər Ələt limanına çatdırılır və oradan dəmir yolu ilə Gürcüstandan keçərək Türkiyəyə gedir. Bunun əksinə olaraq, Zəngəzur dəhlizinin hələ də işlək dəmir yolu infrastrukturu yoxdur - o yalnız layihələndirilir".

Əlbəttə, Zəngəzur dəhlizi yüksək siyasi məzmunlu layihə olaraq qalır. Onun Orta Dəhlizin inkişafına nə dərəcədə töhfə verə biləcəyi açıq sualdır. Burada siyasi çağırışların və iqtisadi risklərin hərtərəfli qiymətləndirilməsi tələb olunur. Bununla belə, istənilən alternativ marşrut, hətta planlaşdırma mərhələsində olan bir marşrut regionun nəqliyyat şəbəkəsinin ümumi potensialını potensial olaraq gücləndirə bilər. Və Zəngəzur dəhlizi reallaşarsa, şübhəsiz ki, Cənubi Qafqazda Orta Dəhlizdə mühüm həlqə olacaq.

Bu dəhlizlə bağlı Tehranın mövqeyinə gəldikdə, şübhəsiz, İranın ənənəvi olaraq Ermənistanla birbaşa sərhədi var idi ki, bu da sıx iqtisadi və siyasi əlaqələrin saxlanmasına imkan verirdi. Ermənistan üzərindən salınan və ABŞ-ın qoruduğu, Amerika şirkəti tərəfindən idarə olunan yeni dəhliz İranı Ermənistana sərbəst və nəzarətsiz girişdən məhrum edə bilər. Tehran üçün bu, PUA-ların, raketlərin və təxribat qruplarının istifadəsi daxil olmaqla, mümkün hücumlar üçün yeni şimal dayağı təhlükəsi yaradır.

"İran əvvəlcə alternativ təklif etdi - marşrutun öz ərazisindən keçirilməsi, lakin bu fikir rədd edildi", deyən Erqaşev bu fikri ilə razılaşa bilmərik. Çünki rəsmi Bakı Tehrana Zəngəzur dəhlizinin İrandan keçən versiyasını -Araz dəhlizi adı ilə təklif etdi. Lakin İran öz marağına alternative heç vəchlə yaxın qoymur.

Beləliklə, ekspertin də müzakirə masasına sərdiyi kimi, layihədə iqtisadi, siyasi və geosiyasi nüanslar bir-birinə qarışaraq onu Azərbaycan, İran və digər ölkələr arasında potensial eskalasiya mənbəyinə çevirir.

Aydındır ki, Türkiyə üçün Zəngəzur dəhlizi Naxçıvan vasitəsilə Azərbaycanla, deməli, Xəzərlə birbaşa quru əlaqəsidir. İran və Rusiya üçün bu, NATO-nun regionda hərbi mövcudluğunun mümkün gücləndirilməsi kimi görünür və bunu təhlükə kimi qəbul edirlər. Amma arxa planda Rusiyanı narahat edən - Moskva üçün vacib olan həm Şimal-Cənub transit layihəsini ön planda tutmaq, reallaşdırmaqdır. Bu, ona Hindistan-Avropa marşrutuna birbaşa çıxış verir. Zəngəzur dəhlizinin isə var olma şansını yalnız ya öz nəzarətində olmasına, ya da baş tutmamasına bağlayır, çünki addım-addım içinə sızan Çinin "iqtisadi xirtdəyi"ni ovcunda saxlamaq istəyir. Sözsüz ki, Moskva Azərbaycan, Ermənistan, Türkiyə, Gürcüstan da daxil olmaqla qonşularının "zəif damarı"nı sıxmaq şansını da əlindən vermək istəmir. Kreml həmişə qonşularını bir-birinə salmaqla "dolanıb". İran da sözsüz ki, Araz dəhlizi ilə kifayətlənmək fikrində deyil, o da Moskva kimi Bakı, İrəvan, Ankaranı həmişə tikan üstündə oturtmaq məqsədini daşıyır. Ona görə 40 kilometrlik Mehri yoluna nəzarəti itirməyə keskin yanaşır. Tehranın hər üç paytaxtın "boğazını əlində saxlamaq" arzusu Zəngəzur dəhlizinə yol verməməkdən keçir. Əks halda İrana ehtiyac qalmaz, İran öz istəklərini diqə edə bilməz, region ökələri İranın nazı ilə oynamaq məcburiyyətində qalmaz. Moskva ilə Tehranın mövqeləri indi də üst-üstə düşür, regionun rifahı və asayişi isə 3 ölkənin - Azərbaycan, Türkiyə, Ermənistanın bir-birinə nə qədər yaxınlaşa biləcəyindən asılıdır.

**İ.SABİRQIZI**



## Sədərək Xəstəxanasının tibbi avadanlıqları hansı məmur tərəfindən oğurlanıb?

**Naxçıvan şəhəri, Sədərək rayon sakini Zamanov Kəmaləddin Nəcəf oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi Sədərək Rayon Xəstəxanasının tibbi avadanlıqlarının oğurlandığını bildirir:**

"Mən, Zamanov Kəmaləddin Nəcəf oğlu, yazaraq xahiş edirəm ki, problemimizi işıqlandırasınız.

Bildirim ki, Birinci Qarabağ Müharibəsinin qazisi, Sədərək rayon Müharibə Veteranları İctimai Birliyinin sədri, Yeni Azərbaycan Partiyasının fəal üzvüyəm. Müavinim Babayev Heydər Kamil oğlu və ictimai fəal Rzazadə Vidadi Zeynal oğlu - hər zaman dövlətimizin, vətənimizin yanında olmuşuq.

Diqqətinizə çatdırım ki, 2 ilə yaxındır Sədərək Rayon Mərkəzi Xəstəxanasında olan tibbi avadanlıqlar hansısa məmur tərəfindən oğurlanıb. Həmin avadanlıqlar Şərur Rayon Xəstəxanasının zirzəmisində saxlanılır.

Sədərək Rayon Xəstəxanasının baş həkimi Coşqun Babayevin vasitəsilə Səhiyyə Nazirliyinə müraciət etsək də, bu məsələyə laqeyd yanaşdılar.

Biz səlahiyyətli qurumlardan xahiş edirik, dövlətin büdcəsinə xüsusilə külli miqdarda ziyan vuran məmurlar araşdırılıb cəzası verilsin.

Xəstəxananın baş həkimi həmçinin bildirir ki, xəstəxanada 40 yaxın vakant yer var, lakin uzaq olduğu üçün hər adam gəlmir. Rayonun özündə yaşayan həkimləri baş həkimə məsləhət verdikdə isə "nazirlik icazə vermədi" deyir.

Biz, Sədərək sakinləri, cənab Prezidentdən kömək istəyirik. Naxçıvan şəhərində səhiyyədə işləyən, millətə xeyri dəyməyən həkimləri vəzifədən uzaqlaşdırın.

"Təcili yardım"ın baş həkimi Vüsal Əliyev Sədərək camaatına can yandırmır. Rayonun özündə onlarla işsiz sürücü olsa da, heç kimə iş vermir. Başqa yerlərdən sürücü işə götürür. Həmin sürücülər də çatma məntəqəsinə yolu tanımadıqları üçün vaxtında çatmırlar. Baş həkimin burada marağı nədir? Niyə rayonda olan sürücülərə iş vermir, digər yerlərdən işçi götürür?!

Naxçıvanda səhiyyə ticarətə çevrilib. Tək ümid yerimiz cənab İlham Əliyevdirr. Cənab Prezident, xahiş edirik rüşvətxor məmurları səhiyyəmizdən uzaqlaşdırın".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# "Öz evim olsa da, ömrüm kirayələrdə keçir"

## Sumqayıt sakini: "33 il müddətində 11 kirayə ev dəyişmişəm, 90 min manata yaxın kirayə haqqı ödəmişəm"

### "2012-ci ildə məhkəmə öz evimdə yaşamağım üçün qərar qəbul etdi, amma icra olunmadı"



**Sumqayıt şəhər sakini Həsənov Xanəhməd Xankişi oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi evinin məcburi köçkünlər tərəfindən mənimsənildiyini, illərdir geri qaytarılmadığını bildirir:**

"Mən, Həsənov Xanəhməd Xankişi oğlu, yazaraq xahiş edirəm ki, şikayətimi işıqlandırın.

Artıq yaş öz sözünü deyib və xəstəliklərlə savaşan halda yaşayıram. Nə az, nə çox, 70 yaşım var. Öz evim olmasına baxmayaraq, ömrüm kirayələrdə keçir.

Belə ki, 33 il bundan əvvəl Sumqayıt şəhərində yerləşən Şüşə Zavodundan mənzil almışam. Lakin məcburi köçkünlər mənzilimi zəbt etdiklərinə görə, illərdir evimdə yaşaya bilmirəm. Mən də, Azərbaycan vətəndaşı olaraq, özüm kirayələrdə yaşasam da, onları evdən çıxarmağa ürəyim tam razı olmurdu. Çünki həyatın cəhənnəm üzünü görmüş insanlar kimi, onlara hər zaman ürəyim ağrıyıb. Lakin məcburi köçkünlərin hamısına şamil etməsək də, bəziləri onlara olunanları gəlib burda, biz yerli insanlara yaşatdılar. Çox təəssüf.

33 il müddətində 11 kirayə ev dəyişmişəm, 90 min manata yaxın kirayə haqqı ödəmişəm.

Evimi zəbt edən şəxslər heç cür anlaşmaya gəlmədilər. Təhdidləri dayanmadı. Evimdən çıxmayacaqlarını bildirdilər.

2012-ci ildə Məhkəməyə müraciət etdim. Məhkəmə öz evimdə yaşamağım üçün qərar qəbul etdi. Amma məhkəmənin qərarı icra olunmadı.

Müraciət etmədiyim qurum qalmayıb. Yaş öz sözünün deyib, evim ola-ola mən niyə kirayədə qalım?!

Səhhətimdə ciddi problemlərim var. Aldığım təqaüd müalicəmi zorla görür. Bu yaşda ödənişləri çatdıra bilmirəm.

Mən özümün və ailəmin adından dövlətimdən xahiş edirəm, mənzilimdə zorla məskunlaşan insanları evimdən çıxarın. İllərdir səbr edib dözmüşəm.

Bu yaxınlarda "Hürriyyət"də eynilə mənim vəziyyətdə olan bir sakinin fəryadını gördüm. İnanın, biz çox ağır vəziyyətdəyik. Xahiş edirəm, səlahiyyətli qurumlar məhkəmənin qərarını icra etsinlər".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**



Məmmədov Namiq Mais oğlu, Məmmədova Həcər İsmayıl qızı və sonuncuların iki azyaşlı uşağı olan Məmmədov Amil Namiq oğlu və Məmmədov Hacı Namiq oğlu məskunlaşmışlar. Cavabdeh D.Məmmədovanın həmin mənzildə məskunlaşması barədə məlumat arayışda yoxdur.

Azərbaycan Respublikası MPM-nin 217.4-cü maddəsinə əsasən məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Beləliklə, məhkəmə tədqiq olunmuş sübutlara istinad edərək hesab edir ki, iddia tələbi Məmmədov Mais Hacı oğlu, Məmmədov Namiq Mais oğlu və Məmmədova Həcər İsmayıl qızına qarşı hissədə təmin edilməli və qeyd olunan şəxslər onlarla yaşayan digər ailə üzvləri ilə birgə Sumqayıt şəhəri, 12-ci mikrorayon, ev 8A, mənzil 43-dən çıxarılmalı, iddia tələbi Məmmədova Durna Paşa qızına qarşı hissədə isə təmin edilməməlidir.

Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 216-220 və 360-cı maddələrini rəhbər tutub, məhkəmə

QƏT ETDİ:

İddia tələbi Məmmədov Mais Hacı oğlu, Məmmədov Namiq Mais oğlu və Məmmədova Həcər İsmayıl qızına qarşı hissədə təmin edilsin.

Məmmədov Mais Hacı oğlu, Məmmədov Namiq Mais oğlu və Məmmədova Həcər İsmayıl qızı və onlarla birgə yaşayan digər ailə üzvləri Sumqayıt şəhəri, 12-ci mikrorayon, ev 8A, mənzil 43-dən çıxarılsınlar.

İddia tələbi Məmmədova Durna Paşa qızına qarşı hissədə təmin edilməsin.

Qətnamə rəsmi qaydada verildiyi gündən 1 (bir) ay müddətində Sumqayıt Şəhər Məhkəməsi vasitəsi ilə Sumqayıt Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verilə bilər.

HAKİM AQİL ABBASOV

# Bazarda 55 min manatlıq malı yanan sahibkar çarəsiz vəziyyətdə

## Ruslan Əhmədov: "Bazar rəhbərliyi bizə kömək etmir, sığorta şirkəti də dəyən ziyanı qarşılamır"

**Beyləqan rayon sakini Əhmədov Ruslan Teymur oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mən, Əhmədov Ruslan Teymur oğlu, yazaraq bildirirəm ki, 2006-cı ildən Beyləqan rayonunda yerləşən Kolxoz bazarında kişi geyimləri satmaqla məşğul idim. İyun ayının 13-dən 14-nə keçən gecə, səhər saat 6 radələrində bazarda yanğın baş verib. Yanğın zamanı mağazada olan geyimlər yanıb kül olub. Nəticədə mənə 55 min manat dəyərində ziyan dəyib.

Nisyə dəftərimdə 9 min manat borc var idi. Bazardan yer almaq üçün 8 min manat depozit vermişdim. Bazarın yanğın təhlükəsizliyi təmin olunmadığı üçün əziyyətini biz vətəndaşlar çəkirik.

Bazar rəhbərliyi heç kəsə kömək etmir. Deyirlər ki, gedin, əlinizdən gələni edin, kömək etmirik. Himayəmdə azyaşlı uşaqlarım var. Kredit borcumu ödəyə bilmirəm. Bazarın müdiri Xəqani Əhmədov taxtadan bir yer düzəldib, deyir gedin müvəqqəti işləyin. Heş kəs bizə nisyə mal verməz. Bazar məqsədli şəkildə yandırılıb. Maddi kömək istəyirəm. Çarəsizəm.



Qeyd edim ki, bazar rəhbərliyi ilə müqavilə əsasında işləmişik. Vergini vaxtı-vaxtında ödəmişəm. Qeyri-qanuni işləməmişik.

Mən bazar rəhbərliyindən kömək istəyirəm. Mənə dəstək olunsun, ailəmi uşağımı dolandırım, borclarımı verim. Sığorta şirkəti də dəyən ziyanı qarşılamır".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# 8 illik məhkəmə çəkişməsi...

## Hərbi hissə yoldaşı tərəfindən öldürülən şəxsə necə şəhidlik statusu verilib?



**Şirvan sakini Əliyev Ağadur Gülalı oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Şamaxı Rayon Məhkəməsində qanunlar "çeynənilir":**

"Mən, Əliyev Ağadur Gülalı oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, 8 ildir Şamaxı Rayon Məhkəməsində saxta şəhidlik statusu almış Niftəliyev Bəxtiyar Şakir oğlu tərəfindən məhkəməyə verilmişəm. Adını çəkdiyim şəxs iddia edir ki, mən onun saxta şəhidlik statusu almış qardaşını təhqir etmişəm.

İllərdir məhkəmə davam edir. Mən bu yaşıma kimi kimisə təhqir etməmişəm, etmərəm də. Amma bu ailə özlərindən xoflanaraq, məni məhkəməyə veriblər.

5 il məhkəmə prosesi davam edəndən sonra mənə 2 min manat cərimə yazdılar. Hazırda isə məhkəmə hansı qanunsuz addımı atıb, hansı məbləğdə cərimə yazacaq, bilmirəm. Azərbaycanda məhkəmə sistemləri bərbad haldadır, qanunu oyuncaq ediblər.



Burada sual yarana bilər ki, mən niyə Niftəliyev Bəxtiyar Şakir oğlunun şəhidliyindən şübhəliyəm? Deməli, 1993-cu ilin noyabr ayında qonşu evdən səs-küy eşitdim. Getdim, evin qadınları məktub göstərdilər. Məktubda yazılmışdı: "7 min manat gətirib verməsəniz, məni öldürəcəklər". Həqiqətən də həftə sonu oğlanın meyitini gətirdilər.

Müstəntiq şahid qismində hətta mənim adımı da qeyd etdi. Niftəliyev Bəxtiyarı hərbi hissədə öz hərbi yoldaşı vurub öldürmüşdü. Həmin adam 9 il iş alıb. Lakin necə olubsa, bizim səlahiyyətli qurum hərbi hissə yoldaşı tərəfindən öldürülən adama şəhidlik statusu verib. Özü də nə az, nə çox, 5 il sonra.

Məni məhkəməyə verən qonşum, qardaşı üçün saxta şəhidlik statusu alan Niftəliyev Balabəy Şakir oğlu məhkəmədə hakimin qarşısında başını aşağı salıb dayanırdı. Hakim deyirdi ki, Ağadur bəy şəhid qardaşın haqda nə deyib, onu necə təhqir edib? Cavab verə bilmirdi.

Bir sözlə, haqsızlığın qurbanı oldum. Mən gördüklərimi, bildiklərimi dedim.

Ailəyə məxsus üzüm bağında dəfələrlə işə baxan hakim Etibar Humbətovu gördüm. Maşını saxlayıb, onları gördüyümü də bəlli etdim. Həmin üzüm bağı mənə 30 min manat cərimə yazılsın deyə hakimə bağışlandı. Hazırda bağ hər iki sahibini itirmiş kimi baxımsız vəziyyətdədir. Hakim görüb ki, mənimlə heç cür bacara bilmir, qanunları bilən, haqqımı tələb edən adamam, mənim xəbərim olmadan, mənə heç bir bildiriş göndərmədən, qərar verərək 2 min manat məbləğində cərimə edib.

Üzərindən xeyli müddət keçəndən sonra Şamaxı İcra probasiya şöbəsindən mənə zəng gəldi. İcra məmuru qeyd etdi ki, məhkəmənin qərarını niyə icra etmirsiz? Ünvanı öyrənib, dərhal yanına getdim. Orada aydın oldu ki, mənə heç bir bildiriş göndərilməyib. Hakim və müavini də bunu təsdiqlədi. Dedilər ki, qarışığa düşüb.

Əslində isə, bu, bir oyun idi. Apellyasiya Məhkəməsinə şikayət vermə hüququm əlimdən alınmışdı. Məhkəmə vaxtı hakimdən xahiş etdim ki, öldürülən şəxsin hansı vəziyyətdə öldürüldüyü haqda sorğu versin. Amma vermədi. Əgər adam ermәni gülləsi ilə öldürülmüşdüsə, bunu niyə gizlətdilər?! Oğlanın meyitini qapılarına gətirəndə heç bir qardaşı ona yaxın durmadı, bütün köməkləri mən etdim. Güllənin hardan girib çıxdığını da görmüşdüm.

Yuxarıda qeyd etdiyim kimi, onu vuran hərbi yoldaşı da həbs edilmişdi. Lakin, bildiyiniz kimi, bizim ölkədə qanun şah deyil...

Hakim və digər saxtakarların mənim adımdan hansısa vacib sənədlərə qol çəkdiklərini də sübut etmişəm. Ekspertizanın rəyi bunları təsdiq edib. Lakin, dediyim kimi, bunlar qanunlarımızı əllərində oyuncaq ediblər".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**



AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ ARXİV İDARƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ARXİVİNİN
ŞİRVAN FİLİALI

AZ1812 Şirvan ş. G.Şıxbala oğlu küç-20. Tel:(02121) 6-18-90. FAKS (02121) 6-31-52, E-mail : arda_shirvan@milliarxiv.gov.az

15 oktyabr 2021-ci il №548

Vəkil Abdullayev Əlisa Ələsən oğluna

Hörmətli vəkil,

Sizin 06 oktyabr 2021-ci il tarixli iş № 34/S qeydiyyatlı məktubunuza cavab olaraq bildiririk ki, sorğuda qeyd etdiyiniz Niftalıyev Bəxtiyar Şakir oğlunun qətli ilə bağlı cinayət işinin hökmünü sizə təqdim etmək bizim səlahiyyətimizdə deyil.

1. Qeyd etdiyiniz münaqişənin Niftalıyev Balabək Şakir oğlu ilə Əliyev Bahadur Gülalı oğlu arasında olduğunu nəzərə alsaq sözügedən qətnamə digər şəxsə aid olduğundan münaqişəyə aidiyyatı yoxdur.
2. Azərbaycan Respublikasının Konstitusiyasının 32-ci maddəsinin 3-cü bəndinə əsasən öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanmasına , saxlanmasına, istifadəsinə, yayılmasına yol verilmir.
3. Məlumat Azadlığı Haqqında Azərbaycan Respublikasının qanunun 10-cu maddəsinə əsasən sizin tələb etdiyiniz məlumat açıq məlumat deyil, alınması məhdudlaşdırılan məlumatlara daxildir.

Yuxarıda sadalanan səbəblərə və digər qanunvericilik aktlarına əsasən sizə məlumatı təqdim etmək səlahiyyətimiz yoxdur.

Cavabdan narazı qaldığınız halda məhkəməyə və Azərbaycan Respublkasının İnsan Hüquqları üzrə Müvəkkili Ombudsmana müraciət edə bilərsiniz.

Filialın direktoru: Hamlet Hüseynov



QƏT ETDİ:

İddia qismən təmin edilsin.

İddiaçı Niftaliyev Balabek Şakir oğlunun şəhid qardaşının nüfuzunu ləkələyən məlumatların yayılmasına görə cavabdeh Əliyev Ağadur Gülalı oğlundan 2000 manat pul alınıb, iddiaçı Niftaliyev Balabek Şakir oğluna verilsin.

İş üzrə keçirilmiş ekspertizanın xərcini təşkil edən 150 manat cavabdeh Əliyev Ağadur Gülalı oğlundan tutularaq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin (Dövlət Xəzinadarlığı Agentliyi kod 210005 VÖEN 1401555071, m/h AZ41NABZ01360100000000003944, S.W.İ.F.T. BİK CTREAZ22 Məhkəmə Ekspertiza Mərkəzi VÖEN: 1700326621, Hesab: AZ34CTRE00000000000002088501) hesabına köçürülsün.

İddia qalan hissədə rədd edilsin.

*Qətnamədən rəsmi qaydada verildiyi gündən bir ay müddətində Şamaxı rayon Məhkəməsi vasitəsi ilə Sumqayıt Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verilə bilər.*

*Qətnamədən şikayət verilmədikdə, qəbul edildiyi gündən bir ay keçdikdən sonra qanuni qüvvəyə minir.*

*SƏDRLİK EDƏN: ETİBAR HÜMBƏTOV*



# 7 ildir 120 manat aliment ödəyirdi, məhkəmə 3 dəfədən çox artırdı

## Hər ay 368 manat ödəmək imkanı olmadığını bildirən Culfa sakini həbslə hədələnir

**Naxçıvan Muxtar Respublikası, Culfa rayonu, Dizə kənd sakini İbrahimov Anar Yadigar oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mən, İbrahimov Anar Yadigar oğlu bildirirəm ki, 2018-ci ildə həyat yoldaşımla rəsmi boşanmışıq. Bu səbəbdən, son aylaradək hər ay uşağa 120 manat aliment ödəyirdim. 5 may 2025-ci ildə məhkəmə qərarı ilə alimentin məbləğini qaldırıb 368 manat etdilər.

Özüm hazırda Türkiyədə fəhlə işləyirəm. Yeni ailə qurmuşam, 1 övladım var. Hər kəsə bəllidir ki, pul qazanmaq, ailə dolandırmaq çox çətindir. 368 manat aliment az qala bir aylıq qazancımdır. May ayından etibarən alimenti ödəyə bilmirəm, gücüm çatmır. İcra məmuru zəng vurub həbs olunacağımı bildirir. Yaşadığım ünvana gedib, ailəmlə maraqlana bilmirəm.

Culfa Rayon Məhkəməsinə fikrimi bildirsəm də, qərarlarında heç bir dəyişiklik etmədilər. Çarəsiz vəziyyətdə qalmışam. Aliment yığılır, özümü həbs gözləyir".

Məsələ ilə bağlı vəkil Emar Qaradağlı ilə həmsöhbət olduq. O bildirdi ki, bu kimi hallarla tez-tez rastlaşılır: "Vəziyyət olduqca ağırdır. Əgər şikayətçi ona qoyulan tələbi ödəyə bilmirsə, məhkəməyə müraciət etsin. Aliment məbləğinin azaldılması üçün əsaslar varsa (gəlirinizin azalması, xəstəlik, yeni ailə öhdəlikləri və s.), məhkəməyə ərizə ilə müraciət edə bilər. Həmçinin, bunun üçün məhkəməyə əsaslandırıcı sənədlər təqdim edilə bilər - maaş arayışı, xəstəlik sənədləri, yeni ailə və uşaq barədə məlumat, digər maliyyə öhdəlikləri və s".

**Jalə FAMİLQIZI**

# Gəncə sakini torpaq sahəsinin zəbt olunduğun deyir

## İbrahim Həsənzadə: "Bütün sənədlərim olmasına baxmayaraq, şikayətimə baxmırlar"



**Gəncə şəhər sakini Həsənzadə İbrahim Abduləli oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, zavoddan ona verilən torpaq sahəsinin bir hissəsini saxtakarlıqla satıblar:**

"Mən, Həsənzadə İbrahim Abduləli oğlu yazaraq bildirirəm ki, 48 il Gəncə "Cihazqayırma" zavodunda tokar islәmişəm.

1996-ci ildə icra başçısının sərancamı ilə zavoda bağçılıq sahəsi ayrılmışdır. Mənə də 4 sot yarım torpaq verdilər. 2013-cü ildə orada iki otaq tikib, hasar çəkdim.

2023-cü ildə Daşınmaz Əmlaka müraciət etdim ki, mənə çıxarış versinlər. Xeyli gözlətdikdən sonra arxivin onlarda olmadığını dedilər. Bələdiyyəyə müraciət etməyimi məsləhət bildilər. Çıxarış alanda, cəmi 2 sot torpaq sənən salınmışdı. Dedilər ki, qalanını ya məhkəmə yolu ilə, ya da polisin əli ilə almalısan.

Sonradan Məhsəti qəsəbəsində yaşayan Ələkbərov Qədir adlı maklerin torpağıma şərik çıxdığını öyrəndim. Deyir ki, mən torpağı almışam. Amma ilk sənədlərin hamısı məndə var. Bütün sənədlərim olmasına baxmayaraq, şikayətimə baxmırlar.

Məsələ ilə bağlı prokurora, Reyestr Xidmətinə, məhkəməyə müracit etmiş, tədbir görülmür.

Pensiyaçı adamam, çarəsiz vəziyyətdə qalmışam. Artıq hara, kimə müraciət edəcəyimi bilmirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Tarixini unudan xalq məhvə məhkumdur

### Övladlarımızın mənəvi deqradasiyaya uğramaması üçün Vətəninə, millətinə, xalqına, dövlətinə sadiq olmalarına çalışmalı, tariximizi olduğu kimi nəql etməliyik

**II YAZI**

Gənclik hər bir insanın həyatında dəyərli bir yaş dövrüdür. Deyirlər gənclik azadlıqdır. Lakin "azadlıq" məfhumu hər kəsin fikrində müxtəlif formalarda təzahür edir. Gənclik o insan üçün azadlıqdır ki, həmin şəxs gəncliyinə böyük dəyər verir, özünə zərərli olan əməllərdən uzaq durur. Yetimlərə, kimsəsizlərə, qocalara əl tutub onların xeyir-duasını eşitmək onların yaşam tərzinə çevrilir. Gənclik insan ömrünün elə təmiz, elə pak anlarıdır ki, kiçicik bir çirkab belə, onu bulandırmağa, alt-üst etməyə kifayət edər. Bu səbəbdən, hər bir şəxs öz gəncliyindən elə istifadə etməlidir ki, sonda onu səadətə və xoşbəxtliyə çatdırsın. Bunun üçün isə ilk növbədə mənəvi aşınmanın səbəbləri aradan qaldırılmalı, gənclərə qloballaşmanın əsl mahiyyəti izah edilməli və onlar vətənpərvərlik ruhuna sahib olmalıdırlar.

Bəzən, gənc nəslin bəzi nümayəndələri özünü elə aparır ki, elə bil nə zamansa qloballaşma barədə dissertasiya yazıb və bu barədə ordan-burdan öyrəndiklərini cəmiyyətə sırımaqla məşğuldur. Halbuki bu barədə ağızdolusu danışanların əksəriyyəti bəlkə də heç bu terminin əslində hansı məna daşıdığından xəbərsizdir. Bu haqda elmi ədəbiyyatlarda yazılanlara inansaq, dünya miqyasında baş verən fundamental prosesləri izah etmək üçün "qloballaşma" termininəndən ilk dəfə 1967-ci ildə istifadə edilib. Müasir anlamda termin kimi isə "qloballaşma" 1980-ci illərin ortalarında dövriyyəyə buraxılıb və əsasən intellektual elita tərəfindən qəbul olunub. Ümumilikdə götürəndə, qloballaşma cərəyanı dini və ictimai fürsətlər və perspektivlər gətirməklə yanaşı, məhz bu sahələrdə çoxsaylı problemlər də yarada bilər. Odur ki, qloballaşma təbii, tədrici və inkşafa doğru gedən bir prosses olmaqla yanaşı, mənfi effektlərlə də özünü büruzə verməkdədir.

Məsələn, qloballaşmanın güclənməsi dünya miqyasında qlobal cinayətlərin, qlobal mənəvi aşınmaların getməsi üçün əlverişli şərait yaradır. Belə ki, bu gün bəzi əcnəbi qüvvələr müxtəlif yollarla, təsir vasitələri ilə yeniyetmələrin, gənclərin beyinlərini yuyaraq onları adət-ənənəyə xor baxan, tarixini, keçmişini unudan manqurda çevirməyə çalışırlar. Məhz bu yerdə filosof və ədəbiyyat tənqidçisi, XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri, siyasi türkçülüyü sistem halına salan, "türkləşmək, islamlaşmaq, avropalaşmaq" düsturunun müəllifi Əli bəy Hüseynzadənin sözləri yada düşür. O deyirdi ki, biz Avropadan müsbət cəhətləri götürməli, amma onların "mədə"sində həzm olunmamalıyıq: "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik, özlərinə deyil! Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istəyirik ki, ölkəmiz onların beyinlərini həzm etsin, mədələrində həzm olunmasın".

Yəni biz dünyanı nə qədər tanısaq da, dünya mədəniyyətinə, iqtisadiyyatına sahib olsaq da, azərbaycanlı olmağımızı, müsəlman olmağımızı yaddan çıxarmamalıyıq. Əgər qloballaşma dövründə milli adət-ənənələrimizi qoruyub saxlamaq istəyiriksə, bu işə ilk növbədə ailədən başlamalı, təhsil müəssisələrində də həmin prosesi davam etdirməliyik. Həqiqətən də övladlarımızın mənəvi deqradasiyaya uğramaması üçün onları düzgün şəkildə tərbiyə etməli, Vətəninə, millətinə, xalqına, dövlətinə sadiq olmalarına çalışmalı, tariximizi olduğu kimi nəql etməliyik. Unutmayın, yalnız bu yolla əsl vətəndaş yetişdirə bilərik.

44 günlük Qarabağ savaşı da bir daha təsdiqlədi ki, qarşımızda kim olursa-olsun, əgər həmrəylik nümayiş etdirərsək, heç kim bizə güc gələ, maraqlarını diqtə edə bilməz!

Cənab Prezident İlham Əliyev çıxışlarının birində qeyd edib ki, Azərbaycanın gücü, zənginliyi onun iqtisadi qüdrəti ilə yanaşı, həm də mənəvi gücündədir: "Bütün inkişaf etmiş ölkələr kimi, indi Azərbaycan da öz fəaliyyətini bazar iqtisadiyyatı prinsipi əsasında qurur. Əlbəttə, dünya praktikası artıq sübut edib ki, bu, ən mütərəqqi yanaşmadır. Ancaq bəzi hallarda əgər mənəviyyat itirsə, mənəvi dəyərlər bazar iqtisadiyyatı içərisində əridilirsə, bu, cəmiyyətin normal yaşamasına böyük təhlükə yarada bilər. Biz çalışmalıyıq ki, ölkəmizin uğurlu iqtisadi inkişafını şərtləndirən bütün amillərlə yanaşı, mütləq və mütləq mənəvi dəyərlər itməsin. Bizim ənənələrimiz, tarixi nailiyyətlərimiz saxlanılsın, qorunsun. Əlbəttə, ölkənin gücü, zənginliyi onun iqtisadi qüdrətindədir. Ancaq eyni zamanda, onun mənəvi gücündədir. Ona güc verən məhz mənəvi dəyərlərdir".





Prezident onu da vurğulayıb ki, vətənpərvərlik təkcə vətəni sevmək deyil, onu qorumaqdır. Bundan başqa, dövlət başçısı Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı zamanı bildirib ki, ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır: "Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir". Ölkə başçısı həmçinin qeyd edib ki, biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır: "Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq, bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları, bir növ, öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd. Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Yaşlı nəslin borcudur ki, bax bu ənənələri yaşatsınlar və gəncləri milli ruhda böyütsünlər".

Həqiqətən də ölkə başçısı çox düzgün vurğulayıb ki, gənclik milli ruhda böyüməlidir. Əlbəttə, yuxarıda qeyd etdiyimiz müəyyən istisnaları nəzərə almasaq, hazırda Azərbaycan gəncliyinin milli ruhda böyüdüyünü əminliklə deyə bilərik. Zənnimizcə, 2020-ci ildə başlayan 44 günlük Qarabağ savaşı bunu bir daha təsdiqlədi. Bu, həmçinin onu göstərdi ki, Azərbaycanla, onun ordusu ilə zarafat etmək olmaz. Artıq heç kimə sirr deyil ki, o zaman cəbhə bölgəsində hərbi əməliyyatlara start verildiyi andan etibarən ölkə vətəndaşları bir nəfər kimi döyüşə hazır olduğunu birmənalı şəkildə bəyan etdi, hətta könüllü dəstələr yaratmağa cəhdlər də oldu. Üstəlik, bir çox rayonlarda bununla bağlı xüsusi tədbirlər keçirilmiş və əli silah tuta bilən gənc oğullarımız, eyni zamanda müharibə veteranları Ali Baş Komandan, ölkə başçısı cənab İlham Əliyevin əmrini gözlədiklərini bəyan etmişdilər.

Əminliklə demək olar ki, bu cür vətəndaşları olan ölkənin kürəyi yerə dəyən deyil. Qarşımızda kim olursa-olsun, əgər həmrəylik nümayiş etdirməyi bacarsaq, o zaman heç kim bizə güc gələ, öz maraqlarını diqtə edə bilməz!

**"Hüriyyət"**

Azərbaycan SSR Kommunist Partiyasının sabiq birinci katibi Əbdürrəhman Vəzirov ölümündən 3 il əvvəl -2019-cu ildə Rusiyada fəaliyyət göstərən "Paxlava Production" internet televiziyasına müsahibə verib. O, həmin müsahibədə 20 yanvar qırğını, siyasi rəhbərliyə necə gəlməsi və ailəsi barədə danışıb. "Hürriyyət" "azpost"a istinadən ilk dəfə efirə gedən həmin müsahibənin diqqətçəkən məqamlarını oxucularına təqdim edir.



"Qorbaçov ilk dəfə 1985-ci ildə mənə Azərbaycana rəhbərlik etməyi təklif etdi, onda imtina etdim"

# "Bakıya qoşun yeridiləndə mən Azərbaycanın rəhbəri deyildim"

## Əbdürrəhman Vəzirov: "Ermənilər Fransadan gətirilmiş xilasedici itlərin ölümünə görə başsağlığı verdilər, bizə yox"



### "Ordunu Bakıya yeritmək barədə qərar olmayıb"

"1990-cı ilin yanvarında ordunun Bakıya yeritmək barədə qərar olmayıb. Yalnız Dağlıq Qarabağ və ətraf rayonlarda fövqəladə vəziyyət elan olunması barədə fərman olub".

Vəzirov bunu "Paxlava Production" internet televiziyasına verdiyi müsahibədə deyib.

Onun sözlərinə görə, həmin yanvarın 18-də artıq Azərbaycana rəhbərlik etməyib: "18 yanvar 1990-cı ildə mən artıq 1-ci katib deyildim. Bunu mənə elan etdilər. Təklif etdilər ki, ya Mərkəzi Komitəyə işə, ya da XİN-ə qayıdım. Mən isə bəyan etdim ki, sizinlə daha işləmək istəmirəm. Belə arzum da yoxdur. 18 yanvar 1990-cı ildə istefamdan sonra Azərbaycanı tərk etdim".

Ə.Vəzirov maraqlı bir detalı açıqlayıb. Onun sözlərinə görə, 1989-cu ildə iki dəfə istefa vermək istəyib: "Mən 1989-cu ilin avqustunda istefa məsələmi qaldırdım. Həmin ilin dekabrında yenə istefa vermək istədiyimi bildirdim".

Ə. Vəzirovun sözlərinə görə, SSRİ rəhbəri Mixail Qorbaçov ilk dəfə ona 1985-ci ildə Azərbaycana rəhbərlik etməyi təklif edib: "Mən onda imtina etdim. Diplomatik iş mənə daha cazibədar görünürdü. Bu təklifdən boyun qaçırdım, Qorbaçov da məni dəstəklədi. Görünür, birinci dəfə mənə bu vəzifəni təkilf edəndə münasibətimi öyrənmək istəmişdi".

Ə. Vəzirov deyib ki, ikinci dəfə 1988-ci ildə ona vəzifə təklif olunub: "1988-ci ildə məni diplomatik vəzifədən təcili geri çağırdılar və yenidən Azərbaycana rəhbərlik etməyi təklif etdilər. Mən dedim ki, bunu bacarmayacağam. Bilirdim ki, məni hansı çətinliklər gözləyir. Qorbaçov mənə dedi: "Rəhman, partiyaya kömək etmək lazımdır". İlk vaxtlar kömək etməyə çalışdım. Sonra Qorbaçov hər şeyi yerlə-yeksan etdi".

Ə.Vəzirov 20 yanvardan sonra daha heç vaxt Mixail Qorbaçovla görüşmədiyini bildirib.

### "Katib dedi ki, yarım saata Qarabağın Ermənistana verilməsi barədə fərmanı imzala"

Daha sonra Vəzirov Ermənistanda 1988-ci ildə baş vermiş zəlzələ, Azərbaycanın ora göndərdiyi yardımdan və Qorbaçovla birgə İrəvana getməsindən danışıb.

"Bu günə qədər ermənilər zəlzələ yerinə xilasedici itlərlə gələn fransızları tərifləyirlər, hamıya təşəkkür edirlər, bir bizdən başqag Sanki biz orada mövcud olmamışıq. Dəhşətdir. Azərbaycandan gələn traktorların təkərlərini təmizləyirdilər ki, burdan gedən bir toz belə Ermənistana düşməsin. Bu vəhşlikdir. Halbuki bu uşaqlar yüzlərlə insanı xilas etmişdilər"- deyə Əbdürrəhman Vəzirov vurğulayıb.

Onun sözlərinə görə, Ermənistanda zəlzələ baş verdikdən 1 saat sonra Mərkəzi Komitənin Bürosunun iclasını çağırıb: "Dedim ki, yardım prosesində iştirak etməliyik. Daha ora nələr göndərmədik?! Vaqonlarla sement, bitum, taxtag Bərpa üçün nə lazımdır, göndərdik. Elə oradaca mexanizatorlardan ibarət xilasedici dəstə formalaşdırdıq. Əvəzində nə ilə qarşılaşdıq? Bu günə qədər xilasedici itlərlə gələn fransızları tərifləyirlər, hamıya təşəkkür edirlər, bir bizdən başqag Sanki biz orada mövcud olmamışıq. Dəhşətdir".

Ə.Vəzirov deyib ki, Azərbaycan rəhbəri kimi o vaxt Ermənistana gedib: "ABŞ-dan Moskvaya qayıdan Mixail Qorbaçov təyyarədən mənə zəng vurdu. Dedi "hər şeyi bilirəm, köməyə görə çox sağ olun". Daha sonra vurğuladı ki, "düşünürəm, bu hadisə millətçi-separatçı əhvalı silib atacaq, bu adamlar ağıllanacaqlar". Qorbaçov mənə zəlzələ baş vermiş Leninakana gəlməyi təklif etdi. Mən xüsusi təyyarə ilə Leninakana uçdum, orada bizi qəbul etmədilər".

Ə.Vəzirov bildirirb ki, oradan İrəvana gəliblər: "Bir saatdan sonra Qorbaçovun təyyarəsi gəldi. Çox isti görüşdü, oturduğu mikroavtobusa mindik. Mən ona olduğum yerdə adamların dediklərini çatdırdım. Hər yerdə "Qarabağ", "Qarabağ"g Zəlzələni belə unutmuşdular. İrəvana gəlmiş yüksək sovet rəhbərlərindən bunu tələb edirdilər. Baxın, Leninakanda insanları xilas edirlər, İrəvanda isə Qarabağla bağlı hər gün mitinq gedirdi. İrəvandakı iclasda ilk sözü Mərkəzi Komitənin katibi Qalayana verdilər. O, Qorbaçova dedi ki, siz yarım saatdan sonra Qarabağın Ermənistana verilməsi barədə fərman imzalamalısınız. İndiyə qədər bu, məni heyrətləndirir: insanlar necə belə qədirbilməz ola bilər? Onlar heç olmasa bir dəfə də olsun bu köməyə görə "çox sağ olun" deməyi bacarmadılar. Biz axı orada həm də azərbaycanlı gənclərdən ibarət xilasedicilərin həlak olduğu bir təyyarəni itirdik. Bundan bir kəlmə demədilər. Fransadan gətirilmiş xilasedici itlərin ölümünə görə başsağlığı verdilər, bizə yox! Biz isə vicdanla, bir qonşu və insan kimi davrandıq".

### "Bakıya bir neçə dəfə gəlmişəm"

Müsahibədə Vəzirov Azərbaycana bir neçə dəfə gəldiyini açıqlayıb.

"Mən Bakıda anadan olmuşam. Valideynlərim isə Qarabağda doğulub. Babam Qarabağ xanının vəzirinin nəvəsidir. Qarabağ xanlığının vəziri Camal Cavanşir xalqımızın tarixində böyük rol oynayıb və mən bununla fəxr edirəm. Mən həmişə bu şəcərəyə layiq yaşamağa çalışmışam. Daşıdığım Vəzirov soyadını götürməyi babama böyük maarifçi yazıçımız Mirzə Fətəli Axundov təklif edib. Vəzir adını saxlamaq üçüng".

Ə.Vəzirov valideynlərinin necə ailə qurmasından da danışıb: "Binəqədidə doğulmuşam. Anam Şuşa Pedoqoji məktəbində oxuyub. O, Qaryagin (indiki Fizuli-red.) rayon partiya komitəsinin birinci katibinin bacısı idi. Babam Dudukçu kəndinin sahibi olub. Bu kənd vaxtıilə İrandan gələn erməni qaçqınlarını qəbul etmişdi. Sonra elə oldu ki, silahlı erməni dəstələri babamın malikanəsini yandırdılar. Babam bundan sonra öz ailəsi ilə birgə Qaryagindəki evində məskunlaşıb. Bu evin yaxınlığında dayımın evi yerləşirdi. Anam yay tətilində bu evə tətilə gələrdi. Atam neftçi idi və Qaryaginə məzuniyyətə gəlibmiş. Nənəm oğluna fikir verib görüb ki, gənc qıza diqqət yetirir. Nəticədə belə alınır ki, partiyanın birinci katibinin bacısı bəy oğlu ilə Bakıya qaçır. Dayım mən dünyaya gələndən sonra bacısı ilə barışıb. Çox firavan uşaqlığım olub. Beş oğlu olan babam məni çox himayə edirdi. O həmişə deyirdi: "Hamısı sənə qurban!" Bağçaya getməmişəm. Atam və anam bizim bütün qayğımızı çəkiblər. Onlar əmək adamları idi. Uşaqlığım çöx sayda millətlərin yaşadığı məkanda keçib".

Daha sonra Ə. Vəzirov maraqlı etiraf edib. O bildirib ki, 90-cı illərdə Azərbaycana gəlib: "Bu illər ərzində bir neçə dəfə Azərbaycana getmişəm. Dəqiq neçə dəfə olduğumu deyə bilmərəm. Anam vəfat edəndə Bakıya gəldim. Digər tədbirlərdə də iştirak etmək üçün Azərbaycana gəlmişəm. Amma bu, çoxdan - 90-cı illərdə olub"...

Əbdürrəhman Vəzirov 2022-ci il yanvarın 10-da Moskvada müalicə aldığı xəstəxanada 91 yaşında vəfat edib. Moskvanın Troyekurovskoye qəbiristanlığında torpağa tapşırılıb.

Peşəkar diplomat olan Vəzirov 1930-cu ilk mayın 26-da Bakıda anadan olub. O, SSRİ-nin Nepalda (1979-1985) və Pakistanda (1985-1988) fövqəladə və səlahiyyətli səfiri olub.

Ə. Vəzirov 1988-1990-cı illərdə Azərbaycan SSR Kommunist Partiyasının 1-ci katibi olub. Məhz onun siyasi rəhbər olduğu zaman sovet ordusu 20 yanvar 1990-cı ildə Bakıya hərbi təcavüz edərək dinc əhalini qırıb.

**Hazırladı: İ.SABİRQIZI**

HƏMAS və FƏTH narkotikə qarşı mübarizə aparmaq əvəzinə, bir-birini, İsraili narkotiklərin yayılmasında günahlandırmağa üstünlük versələr də, bu Fələstin ərəbləri arasında və xüsusən də ölkədə getdikcə daha dəhşətli miqyaslar alıb. Qəzza-Misir sərhədi boyunca qaçaqmalçılıq tunelləri uzun müddətdir ki, HƏMAS-ın idarə etdiyi sahil anklavını müxtəlif növ narkotiklərlə doldurmaqda böyük rol oynayıb.





**Emil MAQALOV**
***Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri, ekspert***

# HƏMAS Qəzza zolağına "Viagra" həbləri göndərir?

## Həm Fələstin rəhbərliyi, həm də HƏMAS öz xalqına belə bir mesaj verir: Yəhudilər Fələstin ərəblərinə ölümcül narkotik paylayaraq onları məhv edirlər...

**Aydın şəkildə başa düşülməlidir ki, Fələstin bəzi ərəb liderlərinin öz əhalisini Yəhudeya, Samariya və Qəzzada narkotiklərin yayılmasında İsrailin günahkar olduğuna inandırmaq cəhdləri yəhudilərə qarşı terrora başqa təhriklərdən az təhlükəli deyil**

HƏMAS-ın nəzarətində olan Qəzza zolağı uzun müddətdir ki, İsrailə qarşı minlərlə terror aktına görə məsuliyyət daşıyan çoxsaylı terror qruplarının bazası olub. Son illərdə bu dəstələr Misirdən Qəzza zolağına qaçaqmalçılıq yolu ilə müxtəlif növ silahların və əsasən narkotiklərin daşınmasında fəal iştirak ediblər.

Qəzzada əsasən işsizlik və yoxsulluğun səbəb olduğu narkomaniyanın artmasından narahat olan HƏMAS bu yaxınlarda narkotik tacirlərinə qarşı kampaniyaya da başlayıb.

HƏMAS-ın nəzarətində olan zolağın Daxili İşlər Nazirliyi daha sonra narkotiklərlə bağlı cinayətlər barədə anonim məlumatların verilməsi üçün hətta qaynar xətt də yaradıb.

Bu, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aydın və ardıcıl mübarizənin olmaması ilə bağlı hakimiyyətə qarşı artan ittihamlardan sonra baş verdi.

Keçmişdə HƏMAS səlahiyyətliləri tərəfindən tutulan narkotik tacirlərinin çoxu, əlbəttə ki, bu təşkilatın nəzarətində olan məhkəmələrə külli miqdarda girov ödəməklə həbsxanadan tez bir zamanda xilas olmağa müvəffəq olib. HƏMAS ilə əlaqəsi olduğu bilinən bəzi qaçaqmalçılar və bəzi narkotacirlər isə tamamilə yayınıblar. Axı narkotik qaçaqmalçılığı ilə yanaşı, terrorçu qruplara silah da çatdırırlar.

Fələstinli ərəb jurnalist Mirvat Oafanın dediyinə görə isə, Qəzza-Misir sərhədi boyunca qaçaqmalçılıq tunelləri uzun müddət Həmas-ın idarə etdiyi sahil anklavını müxtəlif növ narkotiklərlə doldurmaqda böyük rol oynayıb.

Qeyri-rəsmi statistika Qəzza zolağında 100 mindən çox narkoman olduğunu göstərir. "Bu, son dərəcə yüksək rəqəmdir" deyə o, əlavə edir və sektordakı sakinlərin sayının iki milyona yaxın olduğunu vurğulayır.

Qeyd etmək lazımdır ki, sektorun bir milyon nəfərə yaxın olan əhali sayının ehtimal olunan şişirdilməsini nəzərə alsaq, reallıq daha da pis görünür: "Üç il əvvəl Qəzza zolağında narkotik aludəçilərinin sayı 200 000 nəfər olaraq təxmin edilirdi, bu rəqəmlər şokedicidir".

Eyni zamanda, HƏMAS liderləri narkotik ticarəti ilə mübarizədə uğursuzluğa görə məsuliyyətlərini etiraf etmək əvəzinə, günahı özlərindən başqa hamının üzərinə atmağa çalışır.

HƏMAS liderləri əhalini inandırmağa çalışırlar ki, İsrail və Fələstin ərəbləri üzərində hakimiyyət uğrunda HƏMAS-ın rəqibi olan Fələstin muxtariyyətinin başçısı Mahmud Abbasın rəhbərliyi altında FƏTH təşkilatı daşqınlara görə məsuliyyət daşıyır.

İsrailə gəlincə, bu sektorda narkomaniyanın yayılmasında Yəhudi dövlətini günahlandırmaq Fələstin ərəb liderlərinin İsrailə qarşı təhrikləri kontekstində daim istifadə etdikləri ənənəvi qan böhtanının bir hissəsidir. Bu ittihamın əsasında İsrailin gənc fələstinli ərəbləri "korrupsiyaya salmaq" cəhdi ilə onların arasında ölümcül narkotik və digər narkotik maddələr payladığına dair iddia dayanır.

HƏMAS nümayəndəsi artıq İsrailin Qəzza zolağına yerli əhalini aldatmaq üçün Viagra həbləri (kişilərdə erektil disfunksiya və ya impotensiyanı müalicə etmək üçün istifadə olunur) və dərmanlar göndərdiyini bildirdi.

HƏMAS-la əlaqəli əl-Məcdə internet saytı da dəfələrlə Yəhudeya, Samariya və Qəzzanı narkotiklərlə doldurmaqda "sionist kəşfiyyat və onun agentləri" günahlandırıb.

Öz növbəsində HƏMAS-ın Fələstin muxtariyyətindən olan rəqibləri də İsrailə qarşı böhtanların yayılmasında iştirak edirlər. 2014-cü ildə muxtariyyətin təhlükəsizlik qüvvələrinin sözçüsü Adnan Damiri demişdi ki, İsrail "torpaqlarımıza şokedici miqdarda narkotik salıb".

Aydın şəkildə başa düşülməlidir ki, Fələstin bəzi ərəb liderlərinin öz əhalisini Yəhudeya, Samariya və Qəzzada narkotiklərin yayılmasında İsrailin günahkar olduğuna inandırmaq cəhdləri yəhudilərə qarşı terrora başqa təhriklərdən az təhlükəli deyil.

Əslində, həm Fələstin rəhbərliyi, həm də HƏMAS öz xalqına belə bir mesaj verir: Yəhudilər Fələstin ərəblərinə ölümcül narkotik paylayaraq onları məhv edirlər. Buna görə də onların planlarını pozmaq üçün yəhudilərlə qarşı mübarizə aparılmalıdır.

Eyni zamanda nə HƏMAS, nə də Fəth heç bir sübut təqdim etməyiblər.

Hamatu, Ərəb dünyasında bütün iğtişaşları törədən, fitnəfəsad, fahişəlik və cinsi əlaqəni bu kimi yayaraq "peyğəmbərlərin və günahsızların qatilləri" adlandırdığı yəhudilərdir. Şübhəsiz ki, o, Amerika kəşfiyyatının Tramadol (psixotrop analjezik ) və digər həbləri İsrail vasitəsilə Qəzzaya, İordaniyaya və Levantın qalan hissəsinə daşıyan "Qlobal Hisslərə Nəzarət Vahidi"nə malik olduğunu da açıqladı. "Onlar sizin və övladlarınızın düşüncələrini idarə edirlər" dedi.

Bu arada, terrorçuların və narkotacirlərin günahsız qadınlardan sui-istifadə etdikləri ortaya çıxanda Qəzza zolağında narkotik problemi yeni müstəviyə keçdi.

Bu barədə Qəzza zolağında insan haqları və qadın təşkilatlarının təşkil etdiyi seminarda məlum olub. Seminarda çıxış edənlər bildiriblər ki, müalicə üçün Misirə gedən bir neçə qadın narkotik maddə saxlamaq və daşımaq ittihamı ilə Misir hakimiyyəti tərəfindən həbs edilib: "Qadınlar Qəzza zolağından olan narkotik tacirləri tərəfindən aldadılıb və istifadə edilib"

Qəzzadakı Narkotiklərlə Mübarizə Agentliyinin rəsmisi Həsən əl-Svairki bildirib ki, ən azı 114 qadın narkotik alverçilərinin qurbanı olub və narkotik qaçaqmalçılığına görə Misir həbsxanasında saxlanılır.

Bu qadınlar ərəb ölkəsində tibbi yardım almağa can atırdılar. Çünki Qəzza zolağındakı Həmas səlahiyyətliləri onları belə bir fürsətdən məhrum etmiş, onlara verilən pulu xəstəxanalara deyil, İsrailə qarşı təxribata sərf etmişdir.

Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.




# Avtobioqrafik xırdalıqlar


Bəhmən SULTANLI

*(Əvvəli ötən saylarımızda)*

1988-ci il mitinqləri keçirilən zaman Azərbaycan KP MK-nın Birinci katibi Əbdürrəhman Vəzirov mitinq təşkilatçılarını, o sıradan da məni öz iş otağında qəbul edir, bizim mitinq təşkil etməkdə məqsədimizi müzakirə edərdi. Bu görüşlərin birində müzakirədən sonra bizi Bakı Şəhər Partiya Komitəsinin Birinci katibi Fuad Musayev təşkilat məsələlərini müzakirə etmək üçün öz iş otağında qəbul etdi. Kəskin keçən müzakirədən sonra Fuad Musayev məni ayrıca saxladı. O, mənə sual verdi: evin var? Dedim yoxdur. Soruşdu: maşının var? Dedim yoxdur. Dedi: bağın var? Dedim yoxdur. Dedi, sabah mənim yanıma gəl, sənə mənzil də verəcəyəm, bağ da, maşın da. Dedim yox, mən bunların heç birini istəmirəm. Biz özümüzə ev, maşın, bağ almaq üçün mitinq təşkil etmirik. Torpaqlarımızı Qorbaçovlar istila edib ermənilərə vermək istəyir. Buna görə də, mitinqlər keçirməkdə məqsədimiz xalqımızı birləşdirərək buna və millətimizə qarşı törədilən çoxlu başqa qanunsuzluqların qarşısını almaq, Qorbaçovu öz yerində oturtmaqdır. Fuad Musayev bu sözlərimə matməətdəl qaldı və dedi, gedin Qorbaçovu yerində oturdun.

Bir neçə ildən sonra Firudin Cəlilov, İsmayıl Təriqpeyma və adını unutduğum başqa bir dostumuzla şəhərdə gəzişdiyimiz zaman Fuad Musayevlə rastlaşdıq. Fuad bəy məndən soruşdu: evin var, maşının var, bağın var? Fuad bəydən ayrılanda Firudin bəy mənə dedi: Bəhmən, Fuad Musayev sənə niyə o sualları verirdi? Fuad Musayevlə olan söhbətlərimizi danışdım. Firudin bəy dedi, İsmayıl müəllim, bu millətdən torpaq almaq olar? Xeyli gülüşdük və gəzişməmizin sonunadək söhbətlərimiz bu konuda oldu...

Meydan hərəkatı imperiyanın əleyhinə yönəlmişdi, imperiyanı qəbul etmirdi. İzahat verərkən qəbul etmədiyim bir dövlətə izahat verməyin məntiqsiz olduğunu düşünürdüm. Ona görə də müstəntiqlərə olduqca incə yollarla, düşünülmüş şəkildə əslində izahat vermədim, onların suallarına verdiyim cavablarda onları ələ saldım, məsxərəyə qoydum. 1972-ci ildən dostluq elədiyim, əqidə yoldaşım, imperiya əleyhinə birgə təbliğat apardığım Məhəmməd Hatəmi barədə sual verirdilər: "Məhəmməd Hatəmini tanıyırsan, onun SSRİ əleyhinə olduğu barədə nə bilirsən?" Deyirdim: "Bir dəfə akademiyanın qarşısında təsadüfən tanış olmuşam, deyirdilər istedadlı folklorçu alimdir. SSRİ-nin əleyhinə təbliğat aparması barədə heç bir məlumatım yoxdur...". altımışıncı illərdən tanıdığım, səmimi dostluq münasibətində olduğumuz, evimə gedib-gələn, evinə gedib-gəldiyim böyük Xəlil Rza haqqında soruşurdular: "Xəlil Rzanı tanıyırsan, onun "Çənlibel"dəki antisovet çıxışları barədə nə deyə bilərsən...?" Deyirdim, yazırdım: "Xəlil Rza şairdir, mən isə fizik. Onunla mənim hansı tanışlığımdan söz gedə bilər? Sadəcə onun yaxşı şair olduğu haqda eşitmişəm. Onun "Çənlibel"dəki çıxışı barədə heç bir söz eşitməmişəm...".

1969-cu ildən tanıdığım, dostluq etdiyim Sabir Rüstəmxanlını tanıyıb-tanımadığımı, onun SSRİ əleyhinə olub-olmadığını soruşurdular, deyirdim: "Onu yaxşı tanımıram. Ancaq deyirlər yaxşı şairdir, onun bir-iki şeirini oxumuşam, orada SSRİ-nin adına rast gəlməmişəm...".

Altımışıncı illərdə Moskvada eyni aspirant yataqxanasında yataqxana yoldaşı, həm də mövqe ortağı olduğum, sonralar dostluq etdiyim Aydın Məmmədovu tanıyıb-tanımadığımı, onun antisovet təbliğatı barədə nə kimi məlumatımın olduğunu soruşurdular. Deyirdim, ola bilsin harada isə onunla rastlaşmışam, ancaq tanışlığım olmayıb, antisovet təbliğatının nə olduğunu heç özüm də bilmirəm. Bu cür sualları yaranmasının iştirakçısı olduğum, yığıncalarında müntəzəm iştirak etdiyim, aktiv üzvlərindən olduğum "Çənlibel", yaxşı tanıdığım, yaxşı münasibətdə olduğum şair Nüsrət Kəsəmənli, dostum Tağı Xalisbəyli, yaxşı tanıdığım Etibar Məmmədov, Nemət Pənahlı, Ənvər Əliyev... barədə də uyğun suallar verirdilər, uyğun cavablar alırdılar. Mənim dediklərimi inkar edən faktlar ortaya atırdılar, məni çaşdırmağa çalışırdılar. Verilən suallara cavablarım rəsmi izahatımın məzmununu təşkil edirdi. Ancaq imperiyaya qarşı qəzəbim, kinim küdurətim, təbliğat təcrübəm, dəyişməz əqidəm, özümə inamım dediyimin üstündə durmaqda əzmimi artırırdı. Uzun illər həm Azərbaycan Respublikasının "Bilik" Cəmiyyətinin, həm də Bakı şəhər "Bilik" Cəmiyyətlərinin üzvü olmuşam. 1969-2003-cü illər arasında BDU-da çalışmışam. Rektorun özbaşınalıqlarını, qanunsuz əməllərini rəsmi yığıncaqlarda, mətbuatda tənqid etdiyimə görə 2003-cü ildə işdən azad olundum. İşdən azad olunmağım üçün 2003-cü ildə keçirilən prezident seçkiləri ərəfəsində üzv olduğum Müsavat partiyası ilə bağlı durumdan istifadə olunmuşdur. Əslində isə, işdən azad olunmağım həmin tənqidi yazılarımla bağlı olub. Dövlət hakimiyyətinə isə müsavat partiyasının üzvü olduğuma görə çıxarıldığım haqda yalan məlumat verilib.

Tələbəlik illərindən başlayaraq bir sıra (əsasən gizli) ictimai-siyasi təşkilatların ("Savalan": Moskva, 1966-1975; "Bahar": Bakı, 1973-75; "Çənlibel": Bakı, 1987; "Varlıq" Bakı, 1988) yaradıcılarından, eləcə də aktiv iştirakçılarından olmuşam. 1992-ci ildə Vətəndaş Həmrəyliyi Partiyasının yaradılmasında iştirak etmişəm. 1992-1995-ci illər arasında partiyanın ictimai əlaqələr və təbliğat üzrə katibi, 1995-1999-cu illərdə partiya sədrinin birinci müavini vəzifələrində çalışmışam. Bu müddət ərzində respublikada çalışma göstərən "Siyasi partiyalar və ictimai təşkilatların koordinasiya şurası"nın (1992-1994), "Dəyirmi Masa"nın (1994-1998), "DUH"un (1996), "SİDSUH"UN (1996-1999) yaradılmasında, fəaliyyətində, eləcə də siyasi partiyaların, ictimai təşkilatların keçirdiyi çoxsaylı dəyirmi masalarda, qurumlarda, konfranslarda, yığıncaqlarda, "Demokratik Konqres"-də təmsil olunmuşam. Siyasi çalışmalarım müstəqillik, azadlıq yolunda (xalqımın boynuna minnət qoymaq fikrindən uzağam) çarpışmalrımı səciyyələndirib. Ağlım kəsən bütün zamanlarda bu yolla getmişəm. Azadlığa çıxandan sonra yaşadığım "Lenin prospekti"nin adının dəyişdirilərək "Azadlı prospekti" qoyulması rəmzi anlam daşıdı və bu prospektdə yaşadığımı özüm üçün xoşbəxtlik (mutluluq) sayıram.

Hələ birinci kursun tələbəsi ikən ictimai, elmi-kütləvi mövzulu yazılar yazırdım. Bu yazıları mətbuatda dərc etdirməyə çalışırdım. Ancaq yazılarda müəmmalar axtarıb tapırdılar, yazını dərc etmirdilər. O çağlar həmin müəmmaları yazıda "gizlədə" bilmirdim. Bir gün bizi Vanua-Strua adlı Gəmi Təmiri zavoduna görüşə apardılar. Zavodda rusca çıxan divar qəzeti diqqətimi çəkdi. Yuxarı kurs tələbələri də bizimlə idilər. Onlar vasitəsilə zavodun bir azərbaycanlı mühəndisi ilə tanış oldum. Bir neçə dəfə zavoda, onun yanına getdim, ona divar qəzetində yazı dərc etdirmək fikrimi dedim. Adını yadımda saxlaya bilmədiyim həmin adam yazılarımın divar qəzetində dərc olunmasını təşkil etdi. Mənim yazılarım həmin qəzetin azərbaycanca olan nadir yazıları idi. Sonralar başqa divar qəzetlərində də yazılar dərc etdirməyə başladım...

1968-ci ilin noyabr ayında məni seldən xilas edən şəxsin, öz xilaskarımın adını, kimliyini, dəqiq ünvanını bilmirdim. Uzun müddət onun kimliyi ilə maraqlanırdım. Başım həmişə qarışıq olurdu, ona görə də ünvansız axtarışım ardıcıl olmadığından nəticə vermirdi. 2007-ci ilin səhv etmirəmsə, yanvarında İctimai Televiziyanın "Ovqat" proqramına baxırdım. Proqramın qonağı sifətdən tanış gəlirdi. Aparıcı Səyyarə xanım iştirakçının adını "Nahid müəllim, Nahid Hacızadə" deyə çəkəndə onun Nahid Hacızadə olduğunu bilmişdim. Veriliş çox maraqlı keçdiyindən ondan ayrılmırdım. Telefon zəngi gəldi, qonşu otağa keçdim. Qayıdanda Nahid müəllim mənim başıma gələn yuxarıdakı olayı danışırdı. O, olayı olduğu kimi, yerbəyer danışdı, ancaq təkcə bir yerdə yanlışlığa yol verdi - məni yardımlılı yox, qazaxlı aspirant adlandırdı (bunun da elə bir önəmi yox idi), bir də bəzi detalları demədi, çünki bu haqda onun məlumatı yox idi. Ertəsi gün İctimai Televiziyanın "Ovqat" proqramına zəng vurub proqramın məsləhətçisinə Nahid müəllimin dediyi həmin aspirant olduğumu bildirdim, N.Hacızadənin telefonunu verməsini xahiş etdim. Telefonu bilmədiklərini dedilər. Nahid müəllimi yaxından tanıya biləcək adamlardan onun telefonunu soruşdum, bilmədilər.

2007-nin mayında şair Musa Yaqubun yubiley tədbirinə getmişdim. Nahid müəllimi soruşdum, göstərdilər, tanışlıq verdim, həmin aspirantın mən olduğunu dedim. Köhnə xatirəli görüşümüz çox maraqla keçdi. Nahid müəllim həmin hadisəyə aid "Leysan" adlı roman yazdığını, olaydan ona bu romanın qaldığını bildirdi. 2006-da aprelin 28-dən 29-na keçən gecə saat 100-da gah sağ, gah sol sinəmdə şiddətli ağrılar başladı. Evin xanımı bacım oğlu tanınmış kardioloq Həsən oğlu Qəzənfərə zəng vurmaq istədi, mən məsləhət bilmədim, onun rahatsız olmağını istəmədim, səhərədək qovrula-qovrula qaldım, demə, o dəmdə infarkt da keçirə bilərmişəm... Səhər saat 830-da Evin xanımı evə zəng vurdu, artıq, Qəzənfər evdən çıxmışdı. Onun əl telefonuna zəng vurdu, o, dedi iclasdadır, mən tərpənməyim, təcili yardım çağırıb kardioqram çəkdirsinlər, yarım saata özü gələr. 5-10 dəqiqəyə təcili yardımdan həkim gəldi, o həkim Qəzənfərin keçmiş tələbəsi, ona dərin rəğbət bəsləyən Salman Əliyev idi. Salman kardioqram çəkdi, Qəzənfər özü də gəlib çıxdı.

Kardioqram ürəyimdə heç bir qüsur aşkarlamadı. Onda Qəzənfər öd kisəmdən olan şikayətimi nəzərə alıb ağrıların onunla bağlı olduğunu güman etdi. Qəzənfərin bundan sonra dediklərin mənim yadımda qalmayıb. Görünür, onda infarkta az vaxt qalıbmış... Qəzənfər demişdi, gedirəm, iclasdan sonra yenə qayıdıb gələcəyəm. Qapıdan çıxıb, sonra geri dönüb, istəyib öd kisəmin təmizlənməsi haqqında evin xanımına məsləhət verə, bu vaxt məni infarkt vurub. Qəzənfər oğlumu həkim Salmanın ardınca qaçırıb, onlar liftlə düşürmüş, oğlum piyada pilləkənlərlə qaça-qaça onları liftdən çıxanda geri qaytarıb. Evin xanımı dilimi çıxardıb, Qəzənfər isə, ağzından mənə nəfəs verib, sol sinəmi sıxıb-buraxıb. İki dəqiqə mənim nəfəsim dayanıb, ölüm halı keçirmişəm, Qəzənfər öz nəfəsini verərək sol sinəmi sıxıb-buraxmaqla məni ölümdən xilas edib. Qəzənfər həmişə telefonunu gündüz saat 1300-dək söndürərdi, necə oldu, aprelin 29-da söndürmədi? Necə oldu, yarım saata gələcəkdi, 15 dəqiqəyə gəldi? İclasa tələsirdi, necə oldu qapıdan çıxdı, yenidən evə qayıtdı? Necə oldu, Salman Əliyev həyətdən uzaqlaşmamış onu tutmaq mümkün oldu? Necə oldu, o məqamda lift boş oldu? Bunlar necə oldu, belə baş verdi? Necə oldu, kardioqramda infarktla bağlı heç bir məlumat alınmadığı halda, mən infarkt keçirdim? Qəzənfər otuz illik təcrübəsində belə halla rastlaşmadığını deyib, həm də həmin infarkt qışqırtı ilə baş verdiyinə görə onu beyin infarktının əlaməti sayıb. Əlamət beyin infarktına aid, infarkt ürəyin! Qəzənfər gəlməsəydi, mənim xilasım yox idi. Telefonunu söndürmüş olsaydı, onu tapmaq, məni xilas etmək mümkün olmayacaqdı. 15 dəqiqə gec gəlsəydi, mənim xilasım yox idi. İki dəqiqə içəri gec qayıtsaydı, mənim xilasım yox idi. Salman Əliyev qayıdıb özünü yetirməsəydi, mənim xilasım yox idi... Qəzənfər özü bunları möcüzə adlandırdı. Bu doğrudan da möcüzə olub, mənim xilasım Allahın məsləhəti ilə olub, hər şey elə bil, hansısa plan əsasında qurulub! Bunu Qəzənfər özü belə səciyyələndirdi. Bəli, bu doğrudan da belədir. Mən nə vaxtsa, infarkt keçirə bilərdim, ancaq o cür fövqəladə durum yarandı, Qəzənfər məni xilas etdi. Qəzənfər məni xəstəxanada sağ görəndə özünü ələ ala bilməyib hönkür-hönkür ağladı.

*(Ardı var)*